# Ön söz

44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqlarının uzun müddət davam edən işğalına son qoyulmuşdur. Hal-hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin birbaşa rəhbərliyi ilə işğaldan azad edilmiş bütün ərazilərin dirçəlişi prosesi həyata keçirilir.

Azərbaycan ərazilərinin 20 faizinin 30 ilə yaxın müddətdə işğal altında qalması həmin ərazilərdəki tarixi və mədəni irsimiz üçün də fəlakətli fəsadlara səbəb olmuşdur. 1994-cü ildə atəşkəsin elan edilməsindən sonrakı 26 illik dövrün təhlili göstərir ki, Ermənistan tərəfindən Azərbaycan abidələrinin məhv edilməsi hərbi əməliyyatlardan sonrakı dövrdə daha geniş miqyasda aparılmışdır.

Ermənistan Azərbaycana qarşı qanunsuz və əsassız ərazi iddialarını reallaşdırmaq məqsədilə 1991-ci ilin sonundan tam miqyaslı müharibəyə başlamış, nəticədə Azərbaycanın təbii sərvətlər və mədəni irsi ilə zəngin olan ərazisinin əhəmiyyətli bir hissəsi işğal edilmişdir. Müharibə nəticəsində on minlərlə insan həyatını itirmiş, şəhərlər, qəsəbələr və kəndlər dağıdılmış, erməni vandalizminə məruz qalmışdır. Bütün işğal olunmuş ərazilərdə 700 mindən çox azərbaycanlı etnik təmizlənməyə məruz qalmış, regionun infrastrukturuna ciddi ziyan vurulmuşdur.

Ermənistan tərəfindən 700-dən çox tarixi abidə, 22 muzey, o cümlədən 100 min muzey eksponatı, 927 kitabxana, 58 arxeoloji yaşayış məskəni, 26 qala və qala divarı, habelə digər mədəni irs abidələri mənimsənilmiş, məhv və talan edilmişdir.

İşğal nəticəsində bu mirasın məqsədyönlü şəkildə məhv edilməsi siyasəti həm Azərbaycan mədəniyyətinə, həm də dünya sivilizasiyasına bərpası olmayan zərbə vurmuşdur. Ermənistan işğal olunmuş ərazilərdəki yaşayış məntəqələrinin mədəni görkəmini məqsədyönlü şəkildə dəyişdirməklə, abidələri məhv etməklə, memarlıq xüsusiyyətlərini dəyişməklə və arxeoloji qazıntılar aparmaqla bunların Azərbaycan mənşəli olduğunu göstərən əlamətlərini aradan qaldırmaq məqsədi güdmüşdür.

Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısını almaq məqsədilə 27 sentyabr 2020-ci ildə bütün cəbhə boyu əks-hücuma keçən Azərbaycan Ordusu 1990-cı illərin əvvəllərində baş verən Birinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən işğal edilmiş əraziləri işğaldan azad etməyə başlamışdır. 44 gün davam edən və "Vətən müharibəsi" olaraq adlandırılan müharibə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun gücünü göstərərək Azərbaycanın qələbəsi ilə başa çatmışdır. Azərbaycanın mədəniyyət paytaxtı hesab edilən Şuşa şəhəri Şanlı Azərbaycan Ordusu tərəfindən azad edildikdən dərhal sonra, 10 noyabr 2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan üçtərəfli Bəyanat nəticəsində 1 dekabr tarixi etibarilə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 iyul 2021-ci il tarixli fərmanı ilə Qarabağ (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) iqtisadi rayonlarının yeni bölgüsü təsdiqlənmişdir. Hal-hazırda Qarabağ və Şərqi Zəngəzurun sürətli dirçəlişi prosesi gedir.

"Zəfərdən bu günə" informasiya bülleteni işğaldan azad edilmiş ərazilərimizdə gedən dirçəliş prosesi ilə bağlı rəsmi xronikanı özündə əks etdirir.

Azərbaycan, rus, ingilis və ispan dili olmaqla 4 dildə nəşr edilən bülletenin hər sayı 6 aylıq dövrü əhatə edir və ildə 2 dəfə - yanvar və iyul aylarında işıq üzü görür.



“İndi Qarabağ üzrə “Böyük Qayıdış” proqramı icra edilir. İnşallah, vaxt gələcək, biz ikinci “Böyük Qayıdış” proqramını da işləyəcəyik.
Mən əminəm ki, bu gün gələcək və Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqdırlar”.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti





24 AVQUST 2022

## Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin layihəsi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev avqustun 24-də Qazaxıstanın "Bİ-Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa ediləcək Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin layihəsi ilə tanış olmuşdurlar.

Dövlət başçılarına layihə barədə məlumat verən "Bİ-Group" Holdinqin Direktorlar Şurasının sədri Aydın Raximbayev bildirmişdir ki, layihə dörd böyük istiqamətdən ibarətdir: musiqi, müasir texnologiyalar, sənət və yaradıcılıq, o cümlədən idman – oyun zalları. 2 hektar ərazini əhatə edən layihədə müasir memarlığa uyğun binalar, amfiteatr inşa ediləcək, uşaqların yaradıcılığını üzə çıxarmaq və inkişaf etdirmək üçün hər cür şərait olacaqdır.



26
AVQUST
2022

## Azərbaycan Ordusunun bölmələrinin Laçın şəhərinə daxil olması

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən avqustun 26-da Laçın şəhəri, eləcə də Zabux və Sus yaşayış məntəqələri Azərbaycan Ordusunun bölmələri tərəfindən tam nəzarətə götürülmüşdür.

Qeyd olunan ərazilərdə bölmələrimizin yeni dislokasiya məntəqələrinə yerləşdirilməsi, həmçinin zəruri mühəndis işlərinin görülməsi istiqamətində fəaliyyətlər davam etdirilir.



31
AVQUST
2022

## Brüsseldə üçtərəfli görüş

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığının paytaxtı Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 31-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü keçirilmişdir.




**12**
**SENTYABR**
**2022**

## Ermənistan silahlı qüvvələrinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində törətdikləri genişmiqyaslı təxribat

Ermənistan silahlı qüvvələrinin bölmələri sentyabrın 12-də gecə saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törətmişdirlər.

Ermənistan silahlı qüvvələrinin diversiya qrupları sutkanın qaranlıq vaxtında ərazinin dağlıq relyefi və mövcud dərə boşluqlarını istifadə edərək müxtəlif istiqamətlərdə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirmişdirlər.

Bu əməllərin qarşısının dərhal alınması məqsədilə bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində döyüş toqquşması baş vermişdir. Ermənistan silahlı qüvvələrinin Basarkeçər, İstisu, Qarakilsə və Gorus yaşayış məntəqələri istiqamətində yerləşən bölmələri tərəfindən Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki bəzi mövqeləri, sığınacaqlar və dayaq məntəqələri müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutulmuşdur. Nəticədə şəxsi heyət arasında itkilər olmuş, hərbi infrastruktura ziyan dəymişdir.

Ermənistan silahlı qüvvələrinin təxribatının və ölkəmizin ərazisinə və suverenliyinə qarşı hərbi təhlükələrin qarşısının alınması, hərbi qulluqçularımızın, o cümlədən Kəlbəcər və Laçın rayonları ərazisində infrastruktur işlərinə cəlb olunmuş mülki işçilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Ordusunun bu istiqamətdə dislokasiya olunan bölmələri tərəfindən qəti cavab tədbirləri görülmüşdür. Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinin susdurulması və döyüş toqquşmasının miqyasının genişlənməsinin qarşısının alınması məqsədilə zəruri tədbirlər görülmüşdür. Təxribat əməliyyatlarına cəlb olunmuş Ermənistan silahlı qüvvələrinin canlı qüvvəsi və döyüş texnikası sırasında itkilər olmuşdur.

Ermənistan silahlı qüvvələrinin bu təxribatından öncəki son bir ay ərzində dövlət sərhədinin Laçın, Gədəbəy, Daşkəsən və Kəlbəcər rayonları istiqamətində təxribatların olması, Azərbaycan Ordusunun həmin rayonların ərazisindəki mövqelərinin müxtəlif çaplı silahlardan atəşə tutulması halları intensiv və sistematik xarakter daşıyırdı. Eyni zamanda, Ermənistan tərəfinin Azərbaycan sərhədləri boyunca hücum təyinatlı silahları, ağır artilleriya vasitələrini və şəxsi heyəti cəmləşdirməsi müşahidə olunmaqda idi. Bütün bu faktlar bir daha ona dəlalət edirdi ki, Ermənistan genişmiqyaslı hərbi təxribata hazırlaşır. Ermənistan bu kimi əməlləri ilə həmçinin Azərbaycanın işğaldan azad edilmiş sərhədyanı rayonlarda həyata keçirdiyi irimiqyaslı mülki infrastruktur layihələrinin icrasını ləngitmək və Azərbaycan sərhədləri yaxınlığında gərginlik mühitini saxlamaq məqsədini güdürdü.

Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən baş vermiş təxribat, qarşıdurma və itkilərə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.



**13**
**SENTYABR 2022**

## Silahlı Qüvvələrin rəhbər heyətinin iştirakı ilə operativ müşavirənin keçirilməsi

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev sentyabrın 13-də Ermənistan – Azərbaycan sərhədində Ermənistanın törətdiyi təxribatlarla bağlı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin rəhbər heyətinin iştirakı ilə operativ müşavirə keçirmişdir.

Müşavirədə aidiyyəti üzrə məruzələr təqdim edilmiş, Ermənistan silahlı qüvvələrinin iki dövlətin sərhədində törətdiyi təxribatların qarşısının alındığı, bütün müvafiq vəzifə və tapşırıqların yerinə yetirildiyi, yaranmış gərginliyin məsuliyyətinin tam şəkildə Ermənistanın siyasi rəhbərliyinin üzərinə düşdüyü bildirilmişdir.



**16 SENTYABR 2022**

## Səmərqənddə ikitərəfli görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə sentyabrın 16-da Səmərqənddə görüşü olmuşdur. Görüş zamanı Prezident İlham Əliyevi Şanxay Əməkdaşlıq Təşkilatı məkanında, bu təşkilatın Sammitində görməyə şad olduğunu bildirən Prezident Vladimir Putin təşkilat daxili və ikitərəfli münasibətlərə toxunduqdan sonra Ermənistan-Azərbaycan sərhədində vəziyyətin yenidən kəskinləşməsinin hamını ciddi narahat etdiyini dilə gətirmiş, bu barədə Ermənistanın baş naziri Nikol Paşinyanla danışdığını və əlaqələndirilmiş səylər sayəsində eskalasiyanı dayandırmağın mümkün olduğunu bildirmişdir.

Prezident İlham Əliyev də öz növbəsində müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə imzalandıqdan sonra inkişaf edən ikitərəfli münasibətlərə toxunaraq Ermənistan-Azərbaycan sərhədi zonasında vəziyyətin kəskinləşməsinə, eskalasiyaya operativ reaksiya verdiyinə görə Prezident Vladimir Putinə təşəkkürünü bildirmişdir. Prezident İlham Əliyev döyüş toqquşmalarının 8 saatdan az davam etdiyini və artıq atəşkəs rejiminə riayət olunduğunu bildirmiş, indi isə əsas məsələnin başlamaqda olan normallaşma prosesini pozmamaq, bu istiqamətdə irəliləmək olduğunu qeyd etmişdir. Rusiyanın bu istiqamətdə, o cümlədən Rusiya, Azərbaycan və Ermənistan baş nazirlərinin müavinləri səviyyəsində nəqliyyat kommunikasiyalarına dair üçtərəfli komissiya çərçivəsində, delimitasiya prosesi çərçivəsində səylərini, habelə sülh sazişinə dair danışıqlara başlamaq planlarını alqışlayan Prezident İlham Əliyev Azərbaycanın İkinci Qarabağ müharibəsindən sonra Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli sənədlərə sadiq qaldığını və Qafqazda vəziyyətin sabit olması üçün nə lazımdırsa edəcəyini vurğulamışdır.




**21**
**SENTYABR**
**2022**

## Kəlbəcər-Laçın avtomobil yolunda yeni inşa edilən tunellə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Kəlbəcər-Laçın avtomobil yolunun 35-ci kilometrliyində Laçın Beynəlxalq Hava Limanına 2400 metr uzunluğunda giriş tunelinin inşası ilə tanış olmuşdur. Uzunluğu 76,3 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolu başlanğıcını Kəlbəcər rayonunun Qamışlı kəndindən götürməklə Laçın rayonunun ərazisindən keçir. Yeni yol bu rayonların bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və yenicə inşasına başlanılmış Laçın Beynəlxalq Hava Limanına qədər rahat gediş-gəlişi təmin edəcəkdir.

Dolaylardan keçən mövcud yoldan istifadə ediləcəyi təqdirdə həddindən artıq sürüşmə zonalarına rast gəlinir. Qış fəslində güclü qar və şaxtalı hava şəraitində yolun təhlükəsiz istismarı mümkün olmaya bilər. Bununla əlaqədar dolayların birbaşa tunellər vasitəsilə keçilməsi qərara alınmışdır. Tunellər bir istiqamət üzrə bir hərəkət zolaqlı və 11,60 metr enində olacaqdır. Tunellərin ümumi uzunluğu 7596,5 metr təşkil edəcəkdir. Yolboyu tikintisi nəzərdə tutulmuş 12 avtomobil tunelindən 5-nin (T1, T2, T5, T6 və T7) tikinti işləri uğurla davam etdirilir.

Kəlbəcər-Laçın yolunda inşa olunan birinci tunelin (T1) uzunluğu 187 metrdir. Uzunluğu 354,4 metr olan T2 tunelində giriş istiqaməti üzrə 115,8 metr qazma işləri görülmüşdür. Uzunluğu 448,7 metr olan T5 tunelində çıxış istiqaməti üzrə 331 metr qazma işləri aparılmışdır. T6 tunelinin uzunluğu 612,4 metrdir. Tuneldə hər bir istiqamət üzrə ümumilikdə 537,4 metr qazma işləri yerinə yetirilmişdir. T7 tuneli 2420,1 metr uzunluğunda olmaqla inşa edilir. Tunelin hər istiqaməti üzrə ümumilikdə 532 metr qazma işləri görülmüşdür. Bu tunellərdə giriş və çıxış olmaqla hər iki istiqamətdə qazma, partlatma və qırıcı üsullarla qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması işləri davam etdirilir. Layihələndirilən digər tunellərdə isə işlərə mərhələlərlə başlanılması nəzərdə tutulmuşdur. T3 tuneli 900,2 metr, T4 tuneli 853,7 metr, T8 tuneli 230 metr, T9 tuneli 700 metr, T10 tuneli 200 metr, T11 tuneli 320 metr və T12 tuneli 370 metr uzunluğunda olacaqdır.

Kəlbəcər-Laçın avtomobil yolu boyunca torpaq yatağı üçün təməlin hazırlanması, yamacların formaya salınması, 12 düzbucaqlı və 4 dairəvi borunun inşası işləri davam etdirilir. Kəlbəcər və Laçın rayonlarını birləşdirən bu avtomobil yolu 2, 3 və 4 hərəkət zolaqlı olmaqla, birinci, ikinci və üçüncü texniki dərəcələrə uyğun olaraq inşa edilir. Yolun ilk 38 kilometrlik hissəsində suların ötürülməsini təmin etmək məqsədilə ümumi uzunluğu 3348 metr olan 60 dairəvi boru, həmçinin zəruri yerlərdə ümumi uzunluğu 1038 metr olan 9 avtomobil körpüsünün inşası nəzərdə tutulmuşdur.



**21 SENTYABR 2022**

## Laçın şəhərində Azərbaycan bayrağının ucaldılması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Laçın şəhərində Azərbaycan bayrağını ucaltmışdır. Daha sonra çıxış edən Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsinin sonunda Ermənistanın kapitulyasiya aktına imza atmağa məcbur olduğunu, Azərbaycanın tarixi Zəfərinin təsdiqləndiyini və kapitulyasiya aktı nəticəsində Ermənistanın Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal edilmiş hissəsindən öz qoşunlarını çıxarmalı olduğunu bildirmişdir.

Ölkə başçısının sözlərinə görə Laçın və Kəlbəcər rayonlarının bir hissəsi 44 günlük Vətən müharibəsi dövründə azad edilmişdir. Laçının cənub, Kəlbəcərin şimal hissəsini müzəffər Azərbaycan Ordusu işğalçılardan azad etmişdir. Lakin Laçın şəhəri nəzarətimizdən kənarda qalmışdır. Bunun səbəbi Ermənistanı Xankəndi ilə birləşdirən avtomobil yoluna alternativ yolun çəkilməsi olmuşdur. Bir il 8 ay müddətində alternativ yolun tamamlanmasından sonra 2022-ci il avqustun 26-da Azərbaycan Ordusu Laçın şəhərinə daxil olmuş və biz Laçın şəhərini qaytarmağa nail olmuşuq.

Prezident İlham Əliyev qeyd etmişdir: “Onu da bildirməliyəm ki, 26 avqust tarixində Laçın şəhəri ilə birlikdə Zabux və Sus kəndləri də işğalçılardan azad edilmişdir. Yəni, bütün bu tarixi biz heç vaxt unutmamalıyıq. Biz şəhidlərimizin canı, qanı bahasına, qəhrəman əsgər və zabitlərimizin fədakarlığı sayəsində bu gün bu torpaqlardayıq. İndi isə vaxt gəlib çatıb ki, biz Laçın şəhərini bərpa edək. Artıq buna hazırlıq işləri görülür. Mən avqustun 26-dan dərhal sonra buraya bir neçə qrup göndərmişəm, bütün yaşayış fondunun təhlili, uçotu aparılacaqdır, dəymiş ziyan hesablanacaqdır. Eyni zamanda, təxirəsalınmaz işlərin görülməsi üçün təkliflər hazırlanacaqdır. Laçın şəhəri, Zabux kəndi, Sus kəndi yenidən qurulacaqdır.

Bir daha demək istəyirəm, fəxr edirəm ki, Laçın şəhərinin mərkəzində milli bayrağımızı ucaltdım. Bu bayraq burada əbədi dalğalanacaqdır! Biz burada əbədi yaşayacağıq! Yaşasın Laçın! Yaşasın Azərbaycan!”



**21 SENTYABR 2022**

## “Laçın” qovşaq yarımstansiyasının təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti tərəfindən Laçın şəhərində inşa ediləcək 110/35/10 kV-luq “Laçın” qovşaq yarımstansiyasının təməlqoyma mərasimində iştirak etmiş və yarımstansiyanın təməlini qoymuşdur. Prezident İlham Əliyevə “Laçın” qovşaq yarımstansiyası haqqında məlumat verən “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev bildirmişdir ki, Laçın şəhərinin və ətraf kəndlərin Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün şəhərin cənub girişində inşa olunacaq rəqəmsal yarımstansiya Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılmış layihə üzrə tikiləcəkdir.

Ümumi gücü 80 meqavatamper olacaq bu yarımstansiya qovşaq funksiyasını daşıyacaqdır. Belə ki, Füzulidəki “Şükürbəyli” yarımstansiyasından çıxaraq “Cəbrayıl”, “Zəngilan”, “Qubadlı” yarımstansiyalarına, oradan isə “Güləbird” Su Elektrik Stansiyası ilə əlaqələnən 110 kV-luq ikidövrəli xətt, “Daşkəsən” yarımstansiyasından “Kəlbəcər” və “Qorçu” yarımstansiyalarına çəkilən 110 kV-luq ikidövrəli xətt, həmçinin “Şükürbəyli” yarımstansiyasından “Füzuli” və “Şuşa” yarımstansiyalarına gətirilən 110 kV-luq ikidövrəli xətt “Laçın” şəhər yarımstansiyası ilə əlaqələndiriləcəkdir. 44 günlük Vətən müharibəsindən sonra Qarabağda və Şərqi Zəngəzurda tikilən yarımstansiyaların və yeni çəkilən 400 kilometrdən çox yüksəkgərginlikli ikidövrəli xətlərin dairəvi elektrik təchizatı yaradılacaqdır. İşğaldan azad olunmuş ərazilərdəki yüksəkgərginlikli xətlərdən birində qəza baş verərsə, dərhal digər istiqamətdən gələn xətt vasitəsilə oraya gərginlik veriləcəkdir. Bununla da Qarabağda və Şərqi Zəngəzurda enerjinin verilişində fasilə yaranmayacaqdır.

Strateji əhəmiyyətə malik bu yarımstansiyada müasir mikroprosessor tipli rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri, sabit və dəyişən cərəyan qurğuları, 35 kV-luq və 10 kV-luq qapalı paylayıcı qurğular ilə təchiz olunmuş İdarəetmə Mərkəzi, ən müasir avadanlıqlardan ibarət 110 kV-luq açıq paylayıcı qurğu yaradılacaq, həmçinin işçi heyət üçün xüsusi yataqxana korpusu tikiləcəkdir. Yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunması və göstəricilərin “Azərenerji” ASC-nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulacaq və enerji sisteminin mərkəzi SCADA sisteminə inteqrasiya olunacaqdır. “Laçın” qovşaq yarımstansiyasında yanğın təhlükəsizliyinin təmin olunması məqsədilə nasosxana binası, yanğın su hovuzu, qəza yağ tutumu, yanğından mühafizə və yanğın xəbərverici sistemləri də quraşdırılacaqdır.




**27**
**SENTYABR**
**2022**

## Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Füzuli rayonuna səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Füzuli rayonuna səfər etmişdirlər. Dövlətimizin başçısı və birinci xanım Füzuli rayonunun Qaraxanbəyli kəndində 27 Sentyabr – Anım Gününə həsr olunmuş xatirə lövhəsinin önünə gül dəstələri qoymuşdurlar. Xatirə lövhəsinin önündə çıxış edən Prezident İlham Əliyev şəhidlərimizə Allahdan rəhmət diləmiş və Anım Günü bütün Azərbaycan xalqının şəhidlərimizin əziz xatirəsini yad etdiyini bildirmişdir. Prezident İlham Əliyev qeyd etmişdir: “Şəhidlərimiz Vətən, torpaq uğrunda öz canlarını fəda etmişdirlər. Biz öz şəhidlərimizlə fəxr edirik. Qəhrəman əsgər və zabitlərimizlə fəxr edirik. Şəhidlərimizin qanı yerdə qalmadı, biz şəhidlərimizin qanını aldıq. Döyüş meydanında qisasımızı aldıq. Doğma torpaqlarımızı düşməndən azad etdik, ölkəmizin ərazi bütövlüyünü bərpa etdik”.

44 günlük Vətən müharibəsinin şanlı tariximiz olduğunu bir daha vurğulayan Prezident İlham Əliyev çıxışı zamanı demişdir: “Şəhidlərimizin şərəfinə bu abidə- bu qaya parçası burada, Qaraxanbəyli kəndinin yaxınlığında ucaldılmışdır. Qaraxanbəyli kəndi və digər beş kənd İkinci Qarabağ müharibəsinin ilk günündə azad edilmişdir. Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı - Füzuli rayonunun kəndləri və Cəbrayıl rayonunun kəndləri - Böyük Mərcanlı və Nüzgar kəndi müharibənin ilk günündə azad edilmişdir. İlk şəhidləri biz məhz burada, bu yerdə vermişik. Bu abidənin yanında düşmənin səngəri yerləşirdi. Bu istiqamətdə beş-altı müdafiə xətti mövcud idi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bu müdafiə xəttini və bundan sonrakı müdafiə xətlərini yarmaq üçün ölümə gedirdi. Sözün əsl mənasında, ölümə gedirdi, öz canını fəda edirdi ki, üçrəngli Bayrağımız Şuşada və o vaxt işğal altında olan digər bütün torpaqlarda dalğalansın. Öz canını fəda edirdi ki, Azərbaycan xalqı ləyaqətini bərpa etsin, ədaləti bərpa etsin və xalqımız öz torpaqlarına qayıtsın”.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Anım Günü ilə əlaqədar saat 12:00-da Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad etmişdirlər.





**27**
**SENTYABR**
**2022**

## Yuxarı Gövhər Ağa məscidini ziyarət

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Şuşa şəhərində Yuxarı Gövhər Ağa məscidini ziyarət etmiş, burada Heydər Əliyev Fondu tərəfindən aparılan yenidənqurma və bərpa işləri ilə tanış olmuşdurlar.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verən Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov bildirmişdir ki, Yuxarı Gövhər Ağa məscidində bərpa işlərinə 2021-ci ilin noyabr ayından başlanılmışdır. İşğal müddətində ermənilər tərəfindən dağıdılmış məsciddə konservasiya və bərpa işləri ilkin memarlıq üslubuna uyğun olaraq Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən və "Paşa Holdinq"in maliyyə dəstəyi ilə həyata keçirilir. Bərpa prosesi Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə aparılır.

Məscidin daxilindən götürülən məhlul, suvaq, təbii daş, kərpic, ağac və boya nümunələri təhlil və düzgün konservasiya üsullarını əldə etmək məqsədilə Türkiyədəki Fatih Sultan Mehmet Vəqfi Universitetinin nəzdindəki Ahmet Refik Ersen Restavrasiya və Konservasiya laboratoriyasında aparılır.

Bu günədək məsciddə möhkəmləndirmə işləri görülmüşdür. Ermənistanın işğalı dövründə məscidə edilmiş müdaxilələr aradan qaldırılmışdır. Fasadlarda və binanın daxilində suvaq işləri başa çatdırılmışdır. Minarələrin boya işlərinə başlanılmışdır. Hazırda Şuşa şəhərindən Bakıya gətirilmiş sal qaya parçalarından emalatxanada pəncərə haşiyələrinin daş kəsimi və fiqur hazırlanması işləri davam etdirilir. Bərpa işlərinin 2023-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.





**27**
**SENTYABR**
**2022**

## Şuşada yeni yaşayış kompleksində tikinti işlərinin gedişi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Şuşa şəhərində inşa edilən yeni yaşayış kompleksində tikinti işlərinin gedişi ilə tanış olmuşdurlar.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verən Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bildirmişdir ki, tikintinin ümumi sahəsi 8 hektara yaxındır. Yaşayış kompleksi 23 binadan ibarət olacaqdır. Səkkiz binanın tikintisinə bu il iyulun 1-də, digər 15 binanın inşasına isə sentyabrın 1-də başlanılmışdır.

Yaşayış kompleksində ümumilikdə 450 mənzil olacaqdır. Burada birotaqlı mənzillərin sayı 28, ikiotaqlı mənzillərin sayı 195, üçotaqlı mənzillərin sayı 190, dördotaqlı mənzillərin sayı 30, beşotaqlı mənzillərin sayı isə 7-dir. Binalar 3 və 5 mərtəbəli olacaqdır. Kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaqdır. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcəkdir.





**27**
**SENTYABR**
**2022**

## Şuşa şəhərində hotel və konfrans mərkəzində aparılan tikinti işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Şuşa şəhərində hotel və konfrans mərkəzində aparılan tikinti işləri ilə tanış olmuşdurlar.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verən Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bildirmişdir ki, ümumi ərazisi 3 hektardan artıq olacaq hotel və konfrans mərkəzinin inşaat işlərinə bu ilin aprelində başlanılmışdır. Mərkəz ümumilikdə 154 otaqdan ibarət olacaqdır. Burada 400 nəfərlik konfrans zalı, görüş otaqları, restoranlar, mağazalar, yeraltı və yerüstü avtodayanacaqlar və digər zəruri infrastruktur yaradılacaqdır.

Şuşa hotel və konfrans mərkəzinin inşası şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi zəngin mədəni həyatına qovuşması üçün aparılan bərpa-quruculuq işlərində mühüm yer tutur. Qədim dövrdə Böyük İpək Yolunun əsas qovşaqlarından biri olan Şuşa Avropa və Şərq şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırdı. Bu şəhərlərdən davamlı gəlib-gedən tacirlərin gətirdikləri malları saxlamaq üçün karvansaraylar tikilirdi. Məhz bu baxımdan mərkəz karvansaray konsepti əsas götürülərək müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn edilmişdir. Xarici görünüşündə milli memarlıq elementləri tətbiq olunacaqdır. Fasadın üzlənməsində isə şəhərin tarixi binalarının tikintisində işlədilən Şuşa daşından istifadə ediləcəkdir.




27
SENTYABR
2022

## Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyinin binasında yaradılan şəraitlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyinin binasında yaradılan şəraitlə tanış olmuşdurlar.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verən Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bildirmişdir ki, bina 1970-ci illərdə inşa edilmişdir. Burada bərpa və yenidənqurma işlərinə 2021-ci ilin iyununda başlanılmışdır. Binada ümumilikdə 41 iş otağı vardır. Burada əməkdaşların yüksək səviyyədə çalışması üçün hərtərəfli şərait yaradılmışdır. Binada, həmçinin akt və iclas zalları da mövcuddur.



27
SENTYABR
2022

## Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin gedişi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin gedişi ilə tanış olmuşdurlar.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verən Prezidentin köməkçisi Anar Ələkbərov bildirmişdir ki, malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa edilmişdir. Mehmandarovlar ailəsinə məxsus olmuş kompleksə böyük və kiçik yaşayış binaları, ailə məscidi və bulaq daxildir.

Heydər Əliyev Fondu Mehmandarovların malikanə kompleksində, həmçinin ailə məscidi və ərazidəki bulaqda təmir-bərpa işlərinə 2021-ci ilin oktyabrından başlamışdır. İndiyədək evin və məscidin dam örtükləri orijinala uyğun quraşdırılmış, tavanlar bərpa olunmuş və rənglənmiş, qapı və pəncərələr qoyulmuşdur. Dağılmış divar bərpa edilmiş, zədəli divarda bərkitmə işləri aparılmışdır. Eyvanların və erkerlərin taxta konstruksiyalarının çürümüş hissələri bərpa olunmuşdur. Evin çöl pilləkəni yenidən qurulmuş, döşəmə daşlarının dağılmış hissələri bərpa edilmişdir. Eskiz layihələri əsasında divar və tavanlarda rəsmlərin bərpası işləri görülmüşdür. Bu işlər ailə məscidinin uçmuş günbəzlərini, damını, mehrabı və "Güldəstə"sini də əhatə edir.

Bərpa işləri ilə tanışlıq zamanı Mehmandarovların malikanə kompleksinə daxil olan bulaq istifadəyə verilmişdir. Bulağın damı əvvəlki vəziyyətinə gətirilmişdir.

Təmir-bərpa işlərindən sonra burada muzey ekspozisiyasının qurulması nəzərdə tutulur. Muzeyin ekspozisiyası özündə bir şuşalının evini təcəssüm etdirəcəkdir. Burada ev sahibinin məşğuliyyətini, marağını nümayiş etdirən əşyalarla təchiz olunmuş kabinetin, qonaqların qəbulu üçün nəzərdə tutulan, evin ən təmtəraqlı otağı sayılan və bir çox hallarda taxta dekorativ panellər və parça divar kağızları ilə bəzədilən qonaq otağı, yemək və yataq otaqlarının yaradılması nəzərdə tutulur. Təmir-bərpa işlərinin 2023-cü ildə yekunlaşdırılması planlaşdırılır.



**27**
**SENTYABR**
**2022**

## Şuşada təmir və bərpa edilən hoteldə görülən işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Şuşada təmir və bərpa edilən hoteldə görülən işlərlə tanış olmuşdurlar.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verən Prezidentin köməkçisi Anar Ələkbərov bildirmişdir ki, Şuşa şəhərində XIX əsrin ortalarında Qarabağ memarlıq məktəbinə xas olan tərzdə inşa edilmiş və hazırda bərpa olunan üç yaşayış binasının hotel kimi istifadəyə verilməsi nəzərdə tutulur. Bu binalar işğal zamanı dağıdılmış və istifadəyə yararsız hala salınmışdır. Bu ilin mayından başlayan bərpa işləri yekunlaşdıqdan sonra istifadəyə veriləcək hotelin interyeri autentik üslubda olacaqdır.

Binaların təməllərinin və divarlarının bərkidilməsi işləri aparılmış, işğal dövründə binanın dağılmış hissəsi yenidən tikilmiş, sonradan inşa olunmuş əlavə tikililər isə sökülmüşdür. Həyətdəki yarımtikilinin divarlarında bərkitmə işləri aparılmış, dəmir-beton dam quraşdırılaraq tikintisi tamamlanmışdır. Təmir-bərpa işlərinin 2023-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.



27
SENTYABR
2022

## Şuşa şəhərində 1 saylı tam orta məktəbin binasında aparılan tikinti işlərinin gedişi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Şuşa şəhərində 1 saylı tam orta məktəbin binasında aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdurlar.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verən Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bildirmişdir ki, ümumi tikinti sahəsi 4300 kvadratmetrə yaxın olan yeni məktəb binasının inşaat işlərinə 2021-ci ilin oktyabrında başlanılmışdır. Məktəb 960 şagird yerlikdir. Burada şagirdlərin təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq üçün hərtərəfli şərait yaradılacaqdır.



27
SENTYABR
2022

## Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin mənzil-kommunal və təmir xidmətinin inzibati binasında gedən bərpa işləri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin mənzil-kommunal və təmir xidmətinin inzibati binasında bərpa işlərinin gedişi ilə maraqlanmışdırlar. Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat vermişdir.





**04**
**OKTYABR**
**2022**

## Bərdə-Ağdam avtomobil yolunda görülən işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Bərdə-Ağdam avtomobil yolunda görülən işlərlə tanış olmuşdur.

Yolun texniki göstəriciləri və görülən işlər barədə dövlətimizin başçısına məlumat verən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov bildirmişdir ki, başlanğıcını Bərdə şəhərindən götürən bu avtomobil yolunun uzunluğu 44,5 kilometr, eni 26,5 metrdir. Birinci texniki dərəcəyə uyğun inşa olunan avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla, dörd hərəkət zolağından ibarətdir. Yol boyu 4 körpünün, o cümlədən 3 yolüstü piyada keçidinin inşası nəzərdə tutulur. Həmçinin avtomobil yolunda 29 avtobus dayanacağı tikilir. Onlardan 14-nün inşası tamamlanmışdır. Layihə üzrə torpaq işləri başa çatdırılmış, ümumi iş həcminin 75 faizi icra olunmuşdur.






**04**
**OKTYABR**
**2022**

## Atçılıq Nəsilartırma Mərkəzinin təməlqoyma mərasimi

Ağdam rayonunun Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin təməlqoyma mərasimi keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də mərasimdə iştirak etmişdirlər. Prezident İlham Əliyev Atçılıq Nəsilartırma Mərkəzinin təməlini qoymuşdur.

Atlara baxış keçirən Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Atçılıq Nəsilartırma Mərkəzi barədə məlumat verilmişdir. Bildirilmişdir ki, mərkəzin konsepsiyası "Reflect Architechts" şirkəti tərəfindən hazırlanmışdır. Potensial böyümə hədəfi 30 hektar olan ərazinin 7 hektarında yerləşən mərkəzin tərkibində 120 baş at üçün xüsusi dizayn edilmiş tövlələr, nəsilartırma laboratoriyaları, baytarlıq klinikası və digər zəruri obyektlər yaradılacaqdır. Mərkəzdə 60-80 otaqlı mehmanxana, muzey, kafe, restoran və tribunalar nəzərdə tutulmuşdur. İstər peşəkar, istərsə də həvəskar çaparlar üçün xüsusi məşq zonaları, qaçış zolaqları və Çövkən yarışları üçün meydança layihələndirilmişdir.



**04**
**OKTYABR**
**2022**

## Ağdamın Xıdırlı kəndinin təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdam rayonunun Xıdırlı kəndinin təməlqoyma mərasimində iştirak etmişdirlər. Prezident İlham Əliyev kəndin təməlini qoymuşdur.

Dövlətimizin başçısına və birinci xanıma kənddə görüləcək işlərlə bağlı məlumat verən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirmişdir ki, Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5990 nəfərin (1500 ailə) məskunlaşması planlaşdırılmışdır. Layihələndirilən ümumi ərazi 418 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 160 hektar torpaq sahəsi ayrılmışdır. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır.

Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaqdır. Burada mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 2595 nəfərin işlə təmin olunması planlaşdırılır.

Xıdırlıda tikinti işlərinə bu il oktyabrın 10-da başlanılacaqdır. Kənddə tikinti işlərinin 2024-cü il aprelin 10-da tamamlanması nəzərdə tutulur.





**04**
**OKTYABR**
**2022**

## Ağdamın Kəngərli kəndinin təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdam rayonunun Kəngərli kəndinin təməlqoyma mərasimində iştirak etmişdirlər. Prezident İlham Əliyev Kəngərli kəndinin təməlini qoymuşdur.

Dövlətimizin başçısına və birinci xanıma kənddə görüləcək işlərlə bağlı məlumat verən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirmişdir ki, Ağdam şəhərindən 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində 2626 nəfərin (639 ailə) məskunlaşması planlaşdırılmışdır. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 66,2 hektar torpaq sahəsinin ayrılması nəzərdə tutulur. Birinci mərhələdə 1279 nəfərin köçürülməsi üçün 290 fərdi evin inşa edilməsi planlaşdırılır.

Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaqdır. Burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı bir sıra müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 1182 nəfərin işlə təmin olunması nəzərdə tutulur.

Kəngərli kəndində tikinti işlərinin bu il oktyabrın 10-da başlanılması və 2024-cü il aprelin 10-da tamamlanması nəzərdə tutulur.



**04**
**OKTYABR**
**2022**

## Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin təməlqoyma mərasimində iştirak etmişdirlər. Prezident İlham Əliyev Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin təməlini qoymuşdur.

Dövlətimizin başçısına və birinci xanıma kənddə görüləcək işlərlə bağlı məlumat verən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirmişdir ki, 4 zolaqlı Bərdə-Ağdam avtomobil yolu Ağdamın şəhərdaxili yol şəbəkəsi ilə birləşir. Şəhərdaxili yolların ümumi uzunluğu isə 191,1 kilometrdir. İlkin mərhələdə 121 kilometr uzunluğunda yolların inşası nəzərdə tutulur. Şəhərdaxili yollar eni 55-60 metr olan 1-ci dərəcəli və eni 40 metr olan 2-ci dərəcəli ümumşəhər əhəmiyyətli prospektlərdən, həmçinin eni 34 metr olan ümumşəhər əhəmiyyətli və eni 20-24 metr olan yerli əhəmiyyətli küçə və yollardan ibarət olacaqdır. Yolların 2, 4 və 6 zolaqlı olması nəzərdə tutulur.



**04**
**OKTYABR**
**2022**

## “City Hotel Agdam” mehmanxanasının təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdam şəhərində “City Hotel Agdam” mehmanxanasının təməlqoyma mərasimində iştirak etmişdirlər. Prezident İlham Əliyev “City Hotel Agdam” mehmanxanasının təməlini qoymuşdur.

Dövlətimizin başçısına və birinci xanıma inşa olunacaq mehmanxana barədə məlumat verən “PMD Projects” şirkətinin direktoru Nəriman Topçubaşov bildirmişdir ki, Ağdamın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq, ona uyğun infrastruktur yaradılır. Hotel müasir səviyyədə inşa olunacaq və rayona səfər edəcək ziyarətçilərin rahatlığı üçün burada hər cür şərait yaradılacaqdır. 130 nömrədən ibarət olacaq beşmərtəbəli hotel binasında konfrans, iclas və banket zalları, fitnes və spa mərkəzləri, restoran və açıq terras yaradılacaqdır.




**04**
**OKTYABR 2022**

## Pənahəli xanın sarayı və İmarət Kompleksində görüləcək işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdamda Pənahəli xanın sarayı və İmarət Kompleksində görüləcək işlərlə tanış olmuşdurlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq tapşırığına əsasən bərpası işlərinə başlanılan Pənahəli xanın sarayının yerləşdiyi İmarət Kompleksi üçün ilkin konsepsiya layihəsi İtaliyanın “ArtCloud Network International s.c.r.l.” şirkəti tərəfindən hazırlanmışdır. İlkin konsepsiyaya əsasən, kompleks Pənahəli xanın sarayı, məqbərələr, kassa, məlumat mərkəzi və Qarabağ atları parkından ibarət olacaqdır. Pənahəli xanın sarayı bərpa edilərək interaktiv muzey kimi fəaliyyət göstərəcəkdir.

Bu kompleksdə aparılacaq bərpa və konservasiya işlərinə mədəniyyət üzrə beynəlxalq ekspert Alessandro Bianççi rəhbərlik edəcəkdir. O, İtaliya ilə yanaşı, Türkiyə, Gürcüstan, İsrail, İraq, Albaniya, Efiopiya və sair ölkələrdə bərpa və konservasiya işləri üzrə fəaliyyət göstərmiş, bir çox beynəlxalq təşkilatların həyata keçirdiyi layihə, treninq və proqramlarda mütəxəssis kimi iştirak etmişdir. Kompleksin ilkin layihələndirilmə işləri üçün tələb olunan maliyyə vəsaitinin qrant qismində Qarabağ Dirçəliş Fondu tərəfindən ayrılması nəzərdə tutulur.





**04**
**OKTYABR**
**2022**

## Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılış mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdamda XIX əsr Azərbaycan romantik şeirinin görkəmli nümayəndəsi, şair, rəssam, xan qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışını etmişdirlər.

Prezident İlham Əliyevin 2022-ci il 14 mart tarixli Sərəncamı ilə bu il Xurşidbanu Natəvanın 190 illiyinin qeyd olunduğu nəzərə alınaraq yubiley ilində Mədəniyyət Nazirliyi tərəfindən həmin qəbirüstü abidənin bərpa olunması istiqamətində işlərə başlanılmışdır.

Şairənin qəbirüstü abidəsi özünün ilkin görkəmi əsasında heykəltaraş Kənan Əliyev tərəfindən 350 santimetr hündürlükdə boz qranit materialından hazırlanmış və əvvəlki yerində quraşdırılmışdır. Abidə Ağdamda 1982-ci ildə ucaldılmışdır. Elcan Şamilovun müəllifi olduğu qəbirüstü abidənin daş yonulması işlərini görmüş Rəfi Zeynalov 40 il sonra da eyni abidənin hazırlanması üçün daş yonmuşdur. Bununla bağlı Rəfi Zeynalovun xatirələrini bölüşdüyü qısa film də hazırlanmışdır.



04
OKTYABR
2022

## Ağdam şəhərində inşa olunacaq yaşayış məhəlləsinin təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də keçmiş məcburi köçkünlər üçün Ağdam şəhərində inşa olunacaq yaşayış məhəlləsinin təməlqoyma mərasimində iştirak etmişdirlər. Prezident İlham Əliyev yaşayış məhəlləsinin təməlini qoymuşdur.

Dövlətimizin başçısına və birinci xanıma kənddə görüləcək işlərlə bağlı məlumat verən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirmişdir ki, Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması nəzərdə tutulmuşdur. Təməli qoyulan yaşayış məhəlləsinin salınması üçün 6,9 hektar torpaq sahəsi ayrılmışdır. Ərazi şəhərin şimal-şərqində yerləşir. Şərqdən Üzərliktəpə tarixi arxeoloji abidəsi, qərbdən isə şəhərin tarixi mərkəzi ilə əhatələnmişdir. Həmçinin "İmarət" adlanan tarixi ərazi də məhəllənin yaxınlığındadır.

Layihə üzrə yaşayış binaları 4-7 mərtəbəli olacaqdır. Burada 1139 mənzil inşa ediləcəkdir. Yaşayış məhəlləsində 3068 nəfər məskunlaşdırılacaqdır. İşğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənilmişdir.

**04**
**OKTYABR**
**2022**

## Ağdam şəhərində Dəmir yolu və Avtovağzal Kompleksinin təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdam şəhərində Dəmir yolu və Avtovağzal Kompleksinin təməlqoyma mərasimində iştirak etmişdirlər. Prezident İlham Əliyev kompleksin təməlini qoymuşdur.

İki mərtəbə və terrasdan ibarət olmaqla layihələndirilən kompleksə dəmir yolu vağzalı və avtovağzal daxildir. Kompleks vahid nəqliyyat qovşağı şəklində milli arxitektura üslubunda dizayn edilmişdir. Eyni zamanda, kompleksin tikintisində milli ornamentlər əsas götürülməklə, şüşə elementlərdən geniş istifadə olunacaqdır. Kompleks Ağdam rayonunun logistik imkanlarını genişləndirəcəkdir. Dəmir yolu vağzalı gündəlik 800-1000 nəfər sərnişinin daşınmasına imkan verəcəkdir. Avtovağzal isə gündəlik 1300-1500 nəfər sərnişinə xidmət edəcəkdir. Kompleksdə gözləmə zalları, bilet kassaları, tibb və polis məntəqələri, ana və uşaq otağı, əl yüklərini saxlama kamerası, texniki otaqlar, mağazalar, uşaqlar üçün əyləncə zonası, restoran və istirahət guşələri yaradılacaqdır.



**04**
**OKTYABR**
**2022**

## Ağdamın Sarıcalı kəndinin təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Ağdam rayonunun Sarıcalı kəndinin təməlqoyma mərasimində iştirak etmişdir. Prezident İlham Əliyev kəndin təməlini qoymuşdur.

Sarıcalı kəndi 1720 nəfər (425 ailə) əhali üçün planlaşdırılır. Layihələndirilən ümumi ərazi 101,9 hektardır. Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 50,3 hektar torpaq sahəsi ayrılmışdır.

Birinci mərhələdə 895 nəfərin köçürülməsi üçün 211 fərdi ev tikiləcəkdir. Ağdam şəhərinin mərkəzindən 6 kilometr məsafədə yerləşən Sarıcalı kəndində əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaqdır. Burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı bir sıra müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 774 nəfərin işlə təmin olunması nəzərdə tutulmuşdur.




**05**
**OKTYABR**
**2022**

## Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimi

BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə oktyabrın 5-də Ağdamda ""Dayanıqlı İnkişaf Məqsədləri" və "Yeni Şəhər Gündəliyi" – postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi" mövzusunda Azərbaycan Milli Şəhərsalma Forumu işə başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak etmişdirlər. 40-dan çox ölkənin nümayəndəsinin iştirak etdiyi Forumda çıxış edən Prezident İlham Əliyev BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərif və digər qonaqları salamlayaraq, Azərbaycan Milli Şəhərsalma Forumunun bir zamanlar Ağdam şəhərinin yerləşdiyi məkanda təşkil edildiyindən şad olduğunu bildirmişdir. Bir zamanlar həyat dolu olan Ağdam şəhərindən heç nə qalmadığını, işğal dövründə tamamilə dağıdıldığını qeyd edən ölkəmizin başçısı Qarabağ regionunun bir zamanlar ən böyük şəhəri olan Ağdama nə olduğunu görmək və keçmiş məcburi köçkünləri öz evlərinə qaytarmaq üçün bizim həyata keçirdiyimiz və qarşıdakı illərdə planlaşdırdığımız işləri görmək üçün buraya gəldiklərinə görə müxtəlif ölkələrdən olan qonaqlara dərin minnətdarlığını bildirmişdir.

Prezident İlham Əliyev qeyd etmişdir ki, Ağdam Birinci Qarabağ müharibəsi dövründə deyil, sonradan - 30 il işğal dövründə daşları bir-bir sökülməklə dağıdılmış, bütün binalar viran qoyulmuş və sökülmüş, daşlar oğurlanmış və satılmışdır. Ağdamda yarıdağılmış yeganə tikilinin Cümə məscidinin binası olduğunu vurğulayan dövlətimizin başçısı qonaqlara Ağdamda gördüklərini Qarabağın digər ərazilərində, hər bir kənddə görə biləcəklərini bildirmişdir.

Bu gün yeni çağırışlarla üzləşdiyimizi vurğulayan Prezident İlham Əliyev bunların xoş çağırışlar olduğunu - Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, insanların geri qayıtması və Azərbaycanın hər hansı bölgəsində yaşayan keçmiş məcburi köçkünlər üçün daha yaxşı şəraitin yaradılması ilə bağlı çağırışlar olduğunu qeyd etmişdir.

Bu ilin mayında Zəngilanda ilk kənd qurulduğunu və ilk məcburi köçkünlərin artıq qayıtdıqlarını, bu ilin sentyabrında Zəngilanda məktəb açıldığını bildirən dövlətimizin başçısı bildirmişdir ki, işğaldan azad olunmuş Ağdamda keçmiş məcburi köçkünlərin öz yurdlarına tezliklə qayıtması üçün bütün potensialımızı səfərbər edirik. İrimiqyaslı infrastruktur layihələri icra olunur. Həmçinin Prezident İlham Əliyev çıxışı zamanı demişdir: "Siz Füzuli Beynəlxalq Hava Limanını gördünüz, o, səkkiz ay ərzində tikilmişdir. Bu ay biz Zəngilan Beynəlxalq Hava Limanını açmağı və 2025-ci ildə isə Laçında Beynəlxalq Hava Limanını istifadəyə verməyi planlaşdırırıq. Bərdə-Ağdam dəmir yolu gələn il istifadəyə veriləcəkdir. Dünən mən yeni dəmir yolunun təməl daşını qoydum. Hazırda magistral yollar və kənd yolları tikilməkdədir. Təsdiq olunmuş investisiya planına əsasən işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazisində ümumi uzunluğu 50 kilometrdən çox olan 33 tunel olacaq, uzunluğu 12 kilometr olan 84 yeni körpü salınacaqdır. Bu, bizim gördüyümüz işlərin yalnız bir hissəsidir. Biz bütün azad olunmuş ərazilərdə elektrik təchizatını tamamilə bərpa etmişik və ümidvaram ki, tezliklə Cəbrayılda 230 meqavat gücündə olan günəş elektrik stansiyasının tikintisinə başlayacağıq. Ümumiyyətlə, biz işğaldan azad olunmuş ərazilərdə bərpaolunan enerjinin potensialını qiymətləndirmişik və ilkin təhlillərə görə, bu, demək olar ki, on min meqavat təşkil edir. Biz artıq bir neçə su elektrik stansiyasının açılışını etmişik və su elektrik enerjisinin ümumi gücü beş yüz meqavatdan çox olacaqdır. Yerdə qalan güc isə günəş və külək elektrik enerjisindən qaynaqlanacaqdır".

Artıq bütün şəhərlərin Baş planlarının aparıcı beynəlxalq şirkətlər tərəfindən hazırlanmış və təsdiqlənmiş olduğunu bildirən Prezident İlham Əliyev vurğulamışdır: "Beləliklə, biz artıq burada - Ağdamda bir neçə evin tikintisinə başlamışıq. Mən dünən burada idim və 3 kəndin - Xıdırlı, Kəngərli və Sarıcalının təməlqoyma mərasimlərində iştirak etmişdim. Maksimum iki ildən sonra bu kəndlərdə bir neçə min insan yaşayacaqdır. Ağdam şəhərində biz demək olar ki, min yerlik məktəb tikirik. Bu məktəb də ola bilsin bu il, ya da gələn il hazır olacaqdır. Xəstəxana və bir neçə yaşayış binası tikilir. Bu, sadəcə, Ağdamdır. Eyni işlər Füzulidə, Qubadlıda, Zəngilanda da görülür. İki ay bundan əvvəl qayıtdığımız Laçın şəhərini növbəti ilin sonuna kimi bərpa etməyi planlaşdırırıq. Çünki dediyim kimi, orada qeyri-qanuni məskunlaşma var idi. Heç də bütün binalar sökülməmişdir. Biz artıq bir qrup mütəxəssisi oraya göndərmişik. Beləliklə, biz Qarabağı və Zəngəzuru yenidən quracağıq".

Sonra BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru xanım Maimuna Mohd Şərif çıxış edərək Prezident İlham Əliyevi və qonaqları salamlamış, Ağdamda keçirilən birinci Azərbaycan Milli Şəhərsalma Forumuna dəvət edildiyinə görə çox məmnun olduğunu bildirmiş, işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində göstərdiyi əzmə və fədakarlığa görə dövlətimizin başçısını təbrik etmişdir. Daha sonra Forum işini sessiyalarla davam etdirmişdir.



**06**
**OKTYABR**
**2022**

## Praqada ikitərəfli görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Çex Respublikasının Baş naziri Petr Fialanın dəvəti ilə "Avropa siyasi birliyi" Zirvə Toplantısında iştirak etmək üçün Praqada səfərdə olmuşdur.

Oktyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşü olmuşdur. Görüşdə Ermənistan-Azərbaycan əlaqələrinin normallaşdırılması istiqamətində Brüsseldə Şarl Mişelin iştirakı ilə keçirilmiş görüşlərin əhəmiyyəti qeyd olunmuşdur. Prezident İlham Əliyev Şarl Mişelə vasitəçilik missiyasına görə təşəkkürünü bildirmiş və Azərbaycanın Brüssel formatını dəstəklədiyini qeyd etmişdir. Şarl Mişel də öz növbəsində bununla bağlı dövlətimizin başçısına minnətdarlığını bildirmişdir.





06 OKTYABR 2022

## Prezident İlham Əliyevin Praqada "Avropa siyasi birliyi" Zirvə Toplantısının açılış plenar iclasında iştirakı

Çex Respublikasının paytaxtı Praqada oktyabrın 6-da "Avropa siyasi birliyi" Zirvə Toplantısının açılış plenar iclası keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak etmişdir.

"Avropa siyasi birliyi" qitənin ölkələri arasında siyasi əlaqələndirmə platformasıdır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.



**06**
**OKTYABR**
**2022**

## Prezident İlham Əliyevin Praqada "Avropa qitəsində sülh və təhlükəsizlik" mövzusunda dəyirmi masada iştirakı

Praqada "Avropa siyasi birliyi" Zirvə Toplantısı çərçivəsində oktyabrın 6-da "Avropa qitəsində sülh və təhlükəsizlik" mövzusunda dəyirmi masa keçirilmişdir. Tədbirdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışı zamanı bildirmişdir ki, İkinci Qarabağ müharibəsindən sonra regionda yeni vəziyyət yaranmışdır. Ermənistan tərəfindən 30 illik işğala, işğal dövründə törədilmiş dağıntılara, vəhşiliklərə baxmayaraq, Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanması təklifi ilə çıxış etmişdir. Dövlətimizin başçısı qeyd etmişdir ki, bu sülh müqaviləsinin əsasını Azərbaycanın təklif etdiyi 5 prinsip - Dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması; Dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi; Dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək; Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması; Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması təşkil etməlidir.

Bu xüsusda Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesində və Brüssel sülh gündəliyinin formalaşmasında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı və təşəbbüsü ilə keçirilmiş görüşlərin əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev xatırlatmışdır ki, oktyabrın 2-də iki ölkənin xarici işlər nazirləri bu xüsusda görüş keçirmişdirlər. Prezident İlham Əliyev, eyni zamanda, Azərbaycan Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşdırılması üzrə aparılan prosesi dəstəklədiyini, Azərbaycanla Ermənistan arasında olan normallaşma prosesi və Türkiyə ilə Ermənistan arasındakı normallaşma prosesi bir-birini tamamlayacaq proseslər olduğunu və bütövlükdə regionda sülhün və əmin-amanlığın təmin olunmasına xidmət göstərə biləcəyini qeyd etmişdir.

Dövlətimizin başçısı, həmçinin Cənubi Qafqazda sülh və sabitliyin təmin olunması baxımından Azərbaycan-Gürcüstan-Ermənistan, yəni, üçlü formatda enerji, kommunikasiya və qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirə edilə biləcəyi vahid müzakirə platformasının yaradılmasının vacibliyini qeyd etmişdir. Yekunda Prezident İlham Əliyev bir daha dövlətlərarası münasibətlərdə beynəlxalq hüququn prinsiplərinin rolunu qeyd etmiş, xüsusilə ərazi bütövlüyü prinsipinə diqqət çəkmişdir. Bu prinsipə münasibətdə eyni yanaşmanın və dövlətlərarası münasibətlərdə bu prinsipin üstünlük təşkil etməsinin vacibliyini vurğulayaraq bu prinsipə münasibətdə selektiv yanaşmaların kənara qoyulmasının önəmini qeyd etmişdir.





**06**
**OKTYABR**
**2022**

## Praqada sülh prosesi ilə bağlı görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 6-da Praqada Fransanın Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü keçirilmişdir.






06
OKTYABR
2022

## Praqada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan televiziya kanallarına müsahibəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Praqada Azərbaycan televiziya kanallarına müsahibə vermişdir. Müsahibə zamanı sülhə yavaş-yavaş yaxınlaşdığımızı bildirən ölkə başçısı bu sahədə göstərdiyi səylərə görə Şarl Mişelin də fəaliyyətini yüksək qiymətləndirmişdir. Şarl Mişel və Emmanuel Makron tərəfindən Praqada təşkil edilmiş dördtərəfli görüşün də sülh müqaviləsinə çatmaq üçün önəmi olacağını vurğulamışdır.

Sülh prosesinə artıq təkan verildiyini qeyd edən Prezident İlham Əliyev Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında ilk görüşün keçirildiyini və tezliklə ikinci dəfə görüşəcəklərini qeyd etmişdir. Hər iki ölkənin işçi qruplarının nazirlərin ikinci görüşündən sonra bir araya gələrək bir neçə gün ərzində sülh müqaviləsinin mətninin hazırlanması ilə məşğul ola biləcəklərini bildirmişdir.

Müsahibə zamanı Prezident İlham Əliyev dördtərəfli görüşdə həmçinin İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra ermənilər tərəfindən ən azı 1400 mina basdırıldığını, bunun bizə qarşı növbəti cinayət, növbəti terror aktı olduğunu, 250-dən çox azərbaycanlının müharibədən sonra yaralandığını və ya həlak olduğunu və bizə qarşı davam edən erməni terroruna son qoyulmalı olduğunu qeyd etdiyini də bildirmişdir. Dünya ictimaiyyətinin artıq Qarabağın Azərbaycanın tərkib hissəsi olması reallığını dərk etdiyinə, Azərbaycan tərəfindən elan edilən beş prinsiplə bağlı heç kimin sualı olmadığına və bu prinsipləri tərəflərin qəbul etdiyinə toxunan ölkə başçısı, Qarabağda yaşayan ermənilərin bizim vətəndaşlarımız olduğunu və onların taleyini, gələcək həyatını, hər hansı bir ölkə ilə müzakirə etmək fikrində olmadığını qeyd etmişdir. Prezident İlham Əliyev eyni zamanda bildirmişdir: "Bu, bizim daxili işimizdir və Azərbaycan vətəndaşları hansı hüquqlara malikdirlərsə, ermənilər də o hüquqlara malik olacaqdırlar. Hər halda, əmin ola bilərlər ki, onların yaşayışı, Azərbaycan cəmiyyətinə inteqrasiya edilmiş yaşayışı indiki yaşayışdan qat-qat yaxşı olacaqdır".

Sonda koridor məsələsinə toxunan Prezident İlham Əliyev bunun 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın öhdəliyi olduğuna, Ermənistan tərəfin bu öhdəliyi yerinə yetirməkdən hələ də boyun qaçırtdığına, bu mövzuda Azərbaycan tərəfinin hələ də səbr etdiyinə, təmkin göstərdiyinə diqqət çəkmiş və bu mövzunun irəlidə ölkə rəhbərləri arasında keçiriləcək görüşlərin əsas tərkib hissəsi olacağını bildirmişdir.

**06**
**OKTYABR**
**2022**

## Prezident İlham Əliyevin Praqada işçi nahar formatında keçirilən bağlanış plenar iclasında iştirakı

Praqada "Avropa siyasi birliyi" Zirvə Toplantısı çərçivəsində işçi nahar formatında bağlanış plenar iclası keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da keçirilən tədbirdə iştirak etmişdir.



**06**
**OKTYABR**
**2022**

## Praqada üçtərəfli görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 6-da Praqada Fransa Respublikasının Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olmuşdur.

Görüşdə Ermənistan və Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıyan 1991-ci il Alma-Ata Bəyannaməsinə sadiqliklərini təsdiq etmişdirlər. Onlar təsdiqləmişdirlər ki, bu, sərhədlərin delimitasiyası komissiyalarının işi üçün əsas olacaqdır. Qeyd edilmişdir ki, sərhəd komissiyalarının növbəti iclası oktyabrın sonunda Brüsseldə keçiriləcəkdir.



**19**
**OKTYABR**
**2022**

## Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun Şükürbəyli-Cəbrayıl hissəsinin açılış mərasimi

Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 14,2 kilometrlik Şükürbəyli-Cəbrayıl hissəsi istifadəyə verilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da açılış mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısına Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun texniki göstəriciləri və görülən işlər barədə məlumat verən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov bildirmişdir ki, uzunluğu 42 kilometr olan köhnə yol 2,3 kilometr qısaldılaraq 39,7 kilometrlik yeni yolla əvəzləndirilmişdir. Dördzolaqlı yolun hərəkət hissəsinin eni 14 metr, torpaq yatağının eni isə 21,5 metrdir. Yolun üzərində yerləşən 6 körpünün tikintisi başa çatdırılmışdır. Eyni zamanda yol boyunca 45 dairəvi suötürücü boru, 49 ehtiyat keçid borusu, 25 düzbucaqlı suötürücüsü, 7 düzbucaqlı heyvan keçidi tikilmiş, 366 metr uzunluğunda beton, 1620 metr daş istinad divarları çəkilmiş, 18 avtobus dayanacağı quraşdırılmışdır.





**19**
**OKTYABR**
**2022**

## “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, “Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” Kompleksinin layihəsi ilə tanışlıq

Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonu ərazisində yaradılacaq “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, “Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” Kompleksinin layihəsi ilə tanış olmuşdurlar.

Dövlətimizin başçısı və birinci xanım reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Cəbrayıl rayonu ərazisinə 18 baş ceyranın buraxılması mərasimində də iştirak etmişdirlər. Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleksdə görüləcək işlərlə bağlı məlumat verərək bildirmişdir ki, Şirvan Milli Parkından götürülən 18 baş ceyran Cəbrayıl rayonu ərazisinə fərdi reintroduksiya olunmuşdur. Proses bu il və gələn il də davam etdiriləcəkdir.




**19**
**OKTYABR**
**2022**

## Cəbrayılda "Azərişıq" ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Cəbrayılda "Azərişıq" ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak edərək yarımstansiya və idarəetmə mərkəzinin təməlini qoymuşdur.

İnşa olunacaq Rəqəmsal İdarəetmə Mərkəzi 110/35/10 kilovoltluq “Cəbrayıl” yarımstansiyasından qidalanacaqdır. Mərkəz Cəbrayıl şəhərinin elektrik enerjisinə olan tələbatının bir hissəsini təmin etməklə yanaşı, tikintisi nəzərdə tutulan digər güc mərkəzlərinin rəqəmsal platforma üzərindən idarəetməsini həyata keçirtməyə imkan verəcəkdir. “Cəbrayıl şəhər” 35/0,4 kilovoltluq yarımstansiya və Rəqəmsal İdarəetmə Mərkəzi ilə “Hadrut” qovşaq yarımstansiyası arasında əlaqələndirmə xətləri çəkilməklə dairəvi təchizat sxemi yaradılacaqdır. Eyni zamanda, “Qubadlı şəhər” 35/0,4 kilovoltluq yarımstansiyanı Mərkəzlə birləşdirəcək ikidövrəli kabel xəttinin çəkilməsi Cəbrayıl və Qubadlı şəhərlərinin qarşılıqlı enerji mübadiləsinə imkan verəcəkdir.



19
OKTYABR
2022

## 330/110 kilovoltluq "Cəbrayıl" qovşaq yarımstansiyasında tikinti işlərinin gedişi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da 330/110 kilovoltluq "Cəbrayıl" qovşaq yarımstansiyasında aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdur. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verərək bildirmişdir ki, 4 ay əvvəl təməli qoyulan yarımstansiyada böyük həcmdə torpaq, tikinti-quraşdırma işləri görülmüş, yeraltı kommunikasiyalar üçün kanallar inşa edilmişdir. Eyni zamanda, 330 və 110 kilovoltluq açıq paylayıcı qurğularda işlərin çox hissəsi yekunlaşmış, Rəqəmsal İdarəetmə Mərkəzinin binası tikilmişdir.

"Cəbrayıl" qovşaq yarımstansiyasının əhəmiyyəti barədə məlumat verən Baba Rzayev bildirmişdir ki, Qarabağ və Şərqi Zəngəzur regionlarının dayanıqlı elektrik enerjisi ilə təchizatını təmin etmək, həyata keçiriləcək meqalayihələrin tələbatını qarşılamaq, Cəbrayıl-Naxçıvan-Ağrı (Türkiyə) yarımstansiyaları, oradan isə Türkiyənin enerji sistemi vasitəsilə Avropa enerji bazarlarına əlavə və daha əlverişli çıxış əldə etmək, ixrac imkanlarını artırmaq, uzun illərdən sonra Naxçıvan Muxtar Respublikasını Azərbaycanın ümumi enerji sisteminə qoşmaq mümkün olacaqdır. O cümlədən İranla müştərək tikilən "Xudafərin" və "Qız Qalası" Su Elektrik stansiyalarında, həmçinin alternativ və bərpaolunan enerji mənbələrində və kiçik su elektrik stansiyalarında istehsal ediləcək enerjini Azərbaycanın ümumi enerji sisteminə ötürmək üçün 330 kilovoltluq "Cəbrayıl" yarımstansiyasının tikilməsi olduqca mühüm hadisədir.

Bir çox dövlətlərin marağında olduğu və beynəlxalq əhəmiyyət kəsb edən Azərbaycan-Türkiyə-Avropa ölkələrarası beynəlxalq layihənin reallaşdırılması üzrə 3 mərhələdən ibarət planlaşdırma aparılmışdır. Bunun üçün birinci mərhələdə istismar müddətini keçən və işğaldan azad edilən ərazilərə ən yaxın məsafədə yerləşən 330 kilovoltluq "Ağcabədi" və "İmişli" yarımstansiyalarının genişləndirilərək tam yenidən qurulması və "Ağcabədi" yarımstansiyasından 132 kilometr, "İmişli" yarımstansiyasından isə 130 kilometr məsafədə Cəbrayıla yüksəkgərginlikli elektrik verilişi xəttinin çəkilməsi nəzərdə tutulmuşdur. Artıq "Ağcabədi" yarımstansiyasından Cəbrayıla 330 kilovoltluq xəttin çəkilməsinə başlanılmışdır. Eyni zamanda, Cəbrayılda 330 kilovoltluq qovşaq yarımstansiyasında işlərin böyük hissəsi görülmüşdür.

İkinci mərhələdə isə Naxçıvanın ölkənin əsas enerji sistemi ilə əlaqələndirilməsi üçün "Cəbrayıl" qovşaq yarımstansiyasından Zəngəzur dəhlizini keçməklə muxtar respublikaya 255 kilometr uzunluğunda ikidövrəli elektrik verilişi xətti çəkiləcək və 330 kilovoltluq "Naxçıvan" yarımstansiyası tikiləcəkdir.

Üçüncü mərhələdə Azərbaycan, Naxçıvan, Türkiyə və Avropa enerji qovşağının yaradılması üçün muxtar respublikanın qardaş ölkəyə yaxın ərazisində 330 kilovoltu 400 kilovolta keçirtmək üçün əlavə Avropanın enerji standartlarına uyğun 400 kilovoltluq çevirici yarımstansiya inşa ediləcək və Naxçıvandan Türkiyəyə 230 kilometr uzunluğunda ikidövrəli elektrik verilişi xətti çəkiləcəkdir.



**19**
**OKTYABR**
**2022**

## "Zabuxçay" və "Bərgüşadçay" su anbarlarının layihələri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qubadlı rayonu ərazisində yaradılacaq "Zabuxçay" və "Bərgüşadçay" su anbarlarının layihələri ilə tanış olmuşdur. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri Zaur Mikayılov dövlətimizin başçısına layihələr barədə məlumat verərək bildirmişdir ki, bu layihələr Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli Sərəncamı ilə yaradılmış Komissiyanın 21-ci iclasında Zabuxçayın Həkəriçaya birləşdiyi yerdən aşağı hissədə su anbarının yaradılması və magistral boru kəmərinin tikintisi məqsədilə verilmiş tapşırıqların icrası olaraq ASC tərəfindən hazırlanmışdır.



19
OKTYABR
2022

## Qubadlıda "Azərişıq" ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qubadlıda "Azərişıq" ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak edərək yarımstansiya və idarəetmə mərkəzinin təməlini qoymuşdur. Qubadlı şəhərində inşa ediləcək Rəqəmsal İdarəetmə Mərkəzi 110/35/10 kilovoltluq "Qubadlı" yarımstansiyasından qidalanacaqdır. Mərkəz Qubadlı şəhərinin elektrik enerjisinə tələbatının bir hissəsini təmin etməklə yanaşı, tikintisi nəzərdə tutulan digər güc mərkəzlərinin rəqəmsal platforma üzərindən idarə edilməsini həyata keçirməyə imkan verəcəkdir. Rəqəmsal İdarəetmə Mərkəzində müasir dispetçer idarəetmə sistemi və rəqəmsal şəbəkə modeli tətbiq ediləcəkdir.

"Qubadlı şəhər" 35/0,4 kilovoltluq yarımstansiya və Rəqəmsal İdarəetmə Mərkəzi ilə "Cəbrayıl şəhər" 35/0,4 kilovoltluq yarımstansiya əlaqələndirmə xətləri qurulmaqla, "Hadrut" qovşaq yarımstansiyaları arasında dairəvi təchizat sxemi təmin ediləcəkdir. Eyni zamanda, "Qubadlı şəhər" və "Cəbrayıl şəhər" 35/0,4 kilovoltluq yarımstansiyaları arasında nəzərdə tutulmuş ikidövrəli kabel xəttinin çəkilməsi ilə Qubadlı və Cəbrayıl şəhərlərinin qarşılıqlı enerji mübadiləsi təmin olunacaqdır. Qubadlı Rəqəmsal İdarəetmə Mərkəzində "Yaşıl Enerji" mənbələrinin qurulması nəzərdə tutulmuşdur. Mərkəzin dispetçer idarəetmə sistemi həm mərkəzləşdirilmiş, həm də müstəqil funksional rejimlərdə işləmək imkanına malik olacaqdır.



19
OKTYABR
2022

## Qubadlı şəhərinin Baş planı ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Qubadlı şəhərinin Baş planı ilə tanış olmuşdurlar.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlətimizin başçısına və birinci xanıma Qubadlı şəhərinin Baş planı barədə məlumat verərək bildirmişdir ki, Baş plan bu sahədə böyük təcrübəyə malik İsveçrənin "S.A_Partners" şirkəti və Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanmışdır. Şəhər şimal (Kəlbəcər) və cənub (Zəngilan) xidmət, istehsalat şəbəkələrinin bağlantı nöqtəsi olmaqla, kənd təsərrüfatı, sənaye sahələrinin birgə inkişaf etdiriləcəyi, innovativ iş yerləri, bağçılıq imkanları üzrə tədris kampusuna malik, eləcə də su mənbələrinə həssas yanaşmaların təşəkkül tapdığı ekoloji dayanıqlı rayon mərkəzi kimi formalaşdırılacaqdır. Növbəti 20 il ərzində şəhər ərazisinin 505 hektara, əhali sayının isə 14 min nəfərə çatdırılması planlaşdırılır.

Qubadlının təbii imkanları nəzərə alınaraq şəhər parkları, meşə-parklar, çaykənarı bulvar, həmçinin ictimai bağlar şəhərin əsas simasını təşkil edəcəkdir. Burada yerləşəcək yaşayış məkanlarının ərazi planlaşdırılmasında yaşıl sahələr, piyada əlçatanlığı nəzərə alınmış, çoxfunksiyalı zonaların, ortamərtəbəli və azmərtəbəli binaların, həmçinin həyətyanı sahəsi olan fərdi evlər üçün zonaların yerləri müəyyənləşdirilmişdir.

Baş plana əsasən şəhərin mərkəzi hissəsində evləri, iş yerlərini, istirahət, əyləncə və mədəni fəaliyyəti, sosial obyektləri bir mühitdə cəmləyən əlverişli şəraitin yaradılması planlaşdırılır. Şəhər üzrə tikinti sıxlığı mərkəzdən kənarlara doğru azalacaqdır. Orta mərtəbəli çoxmənzilli yaşayış binaları və ictimai tikililər mərkəzi hissədə, daha kənarlara doğru isə azmərtəbəli binalar və həyətyanı sahələrə malik fərdi evlər yerləşdiriləcəkdir.

Şəhərin planlaşdırılması zamanı tətbiq edilmiş su ilə qovuşan və suya həssas şəhər ("Sponge city") yanaşması yağıntıların şəhər mühitinə mənfi təsirinin azaldılmasını, su təchizatı üçün optimal həllərin təşkilini, habelə su ehtiyatlarından səmərəli istifadəni özündə ehtiva edir. Nəticədə şəhərin biomüxtəlifliyi üçün münbit şəraitin yaradılması və Qubadlının göz oxşayan yaşıl bir məkana çevrilməsi nəzərdə tutulur.




**19**
**OKTYABR**
**2022**

## Qubadlı İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Qubadlı İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoymuşdurlar.

Qubadlı İşğal və Zəfər muzeyləri kompleksi İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntılardan ibarət Memorial Parkdan ibarət olacaqdır. Kompleks təxminən 3 hektar ərazini əhatə edəcəkdir. Həkəri çayını əhatə edən təbii yaşıllıq zolağının bir hissəsi kompleksin ərazisinin şimal hissəsini təşkil edəcəkdir. Çayın bir hissəsi kompleksin ərazisindən keçdiyi üçün Zəfər Muzeyi və İşğal Muzeyinin gözəl mənzərəli körpü vasitəsilə simvolik olaraq bir-biri ilə əlaqələndirilməsi nəzərdə tutulur. Həkəri çayı üzərində salınan Laləzar körpüsü kimi bir çox qədim körpülər və Qubadlı ərazisində aşkarlanan daş qoç fiqurlarında təsvir olunan spiralvari buynuzlar layihə konsepsiyasının əsas ilham mənbəyini təşkil edir.

Qubadlı İşğal Muzeyinin interyeri binanın spiralvari forması ilə səciyyələnir. Muzeyin ekspozisiyası müxtəlif audio və vizual texnologiyalardan istifadə etməklə təşkil olunacaqdır. Muzeydə işğala qədər Qubadlıda əhalinin gündəlik həyatı, şəhərin işğalı və həmin hadisələrin şahidlərinin xatirələri, dağıdılmış irs və işğaldan sonra ərazinin məruz qaldığı vandallıq əyani olaraq nümayiş etdiriləcəkdir. Muzey binasının sonuncu mərtəbəsində isə ziyarətçilərin istirahəti üçün yaşıllıqlardan ibarət terras təşkil olunacaqdır.

Zəfər Muzeyinin interyeri də dairəvi formada olacaqdır. Birinci mərtəbədə yerləşən sərgi zalları xalqımızın göstərdiyi qəhrəmanlıq və qazanılan Zəfərə, o cümlədən “Dəmir yumruq” əməliyyatına həsr olunacaqdır. İkinci mərtəbədə vizual texnologiyalar vasitəsilə Vətən uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsini əbədiləşdirən və qəhrəmanlarımız haqqında məlumatların təqdim olunduğu ekspozisiya yaradılacaqdır. Həmçinin muzeydə müxtəlif sərgilərin keçirilməsi üçün xüsusi zal fəaliyyət göstərəcəkdir.



**19**
**OKTYABR**
**2022**

## Zəngilanın Ağalı kəndində sakinlərlə görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Zəngilan rayonunun Ağalı kəndində olmuşdurlar. Dövlətimizin başçısı və birinci xanım Ağalı kənd orta məktəbinin şagird-müəllim kollektivi ilə və sakinlərlə görüşmüşdürlər.



**19**
**OKTYABR**
**2022**

## Zəngilan Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Zəngilan Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olmuşdurlar. "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov dövlətimizin başçısına və birinci xanıma hava limanı barədə məlumat verərək bildirmişdir ki, Zəngilan Beynəlxalq Hava Limanının asfalt-beton örtüklü uçuş-enmə zolağının uzunluğu 3 min metr, eni isə 60 metr təşkil edir. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən genişgövdəli ağır yük təyyarələrini qəbul edəcəkdir.

Perronun sahəsi 60 min kvadratmetrdir. Hava limanı ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcəkdir.

Müasir dünya tələblərinə cavab verən beynəlxalq aeroportun terminalı saatda 200 sərnişinə xidmət göstərmək imkanına malik olacaqdır. Terminal daxilində VIP-zal, kafe, tibb məntəqəsi və ofis otaqları mövcuddur. Zəngilan Beynəlxalq Hava Limanının ərazisində yardımçı binalar, transformator binası, qazanxana və su çənləri inşa edilmişdir. Uzunluğu təxminən 10 kilometr olan 35 kilovoltluq ikidövrəli elektrik kabel xətti çəkilmişdir. 230 metr dərinlikdə artezian quyusu qazılaraq su çıxarılmışdır.

Aeroportda tam avtomatlaşdırılmış hava hərəkətinə nəzarət və aviasiya rabitəsi sistemləri ilə təchiz olunmuş Hava Hərəkətini İdarəetmə Qülləsi tikilmişdir. Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün ICAO-nun beynəlxalq tələblərinə uyğun olaraq İtaliyanın və Almaniyanın aparıcı istehsalçılarının müasir aeronaviqasiya dəstək sistemləri tətbiq edilmişdir. Qısa müddətdə ILS/DME instrumental eniş sistemləri, VOR/DME marşrutu üzrə hava gəmisi naviqasiya vasitələri, avtomatlaşdırılmış aviasiya və meteoroloji müşahidə sistemləri, ilkin və ikinci dərəcəli radar sistemləri quraşdırılaraq istifadəyə verilmişdir. Bütün sistemlər ICAO və Eurocontrol-un beynəlxalq aviasiya kataloqlarında qeydiyyatdan keçmişdir.



**19**
**OKTYABR**
**2022**

## Zəngilanda Arximed turbini tipli Su Elektrik Stansiyasının işə salınması mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Zəngilanda Arximed turbini tipli Su Elektrik Stansiyasının işə salınması mərasimində iştirak etmişdirlər və dövlətimizin başçısı stansiyanı işə salmışdır. Kənd təsərrüfatı naziri İnam Kərimov dövlətimizin başçısına və birinci xanıma stansiya barədə məlumat verərək bildirmişdir ki, Zəngilan rayonunun Ağalı kəndində “Ağıllı kənd” layihəsi çərçivəsində keyfiyyətli ekoloji mühitin yaradılması və enerjidən səmərəli istifadə edilməsi üçün dayanıqlı enerji mənbələrinə üstünlük verilmişdir.

Kəndin dayanıqlı enerji ilə təmin edilməsi üçün Həkəri çayı üzərində Almaniyanın “Rehart GmbH” şirkəti tərəfindən istehsal olunan və hər biri 212 kilovat olmaqla 3 hidravlik turbindən və müvafiq hissələrdən ibarət Arximed turbini tipli Su Elektrik Stansiyası inşa edilmişdir. Üç ədəd generatorun quraşdırıldığı stansiya Ağalı kəndinin elektrik enerjisinə tələbatını tam təmin etmək gücünə malikdir.




**19**
**OKTYABR**
**2022**

## Zəngilanda ilk yaşayış binasının təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Zəngilan şəhərində ilk yaşayış binasının təməlqoyma mərasimində iştirak etmişdirlər və dövlətimizin başçısı Zəngilan şəhərində ilk yaşayış binasının təməlini qoymuşdur.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına və birinci xanıma binanın daxil olduğu yaşayış məhəlləsi barədə məlumat verərək bildirmişdir ki, ümumi sahəsi 2.06 hektar olan yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaqdır. Məhəllə Zəngilan şəhərinin mərkəzi küçəsində, məktəb və biznes zonasının yaxınlığında yerləşəcək və şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun olacaqdır. Bu məhəllədə ümumilikdə 10 bina tikiləcəkdir. Bunlardan 6-nın ikimərtəbəli, 4-nün isə üçmərtəbəli olması planlaşdırılmışdır.




19 OKTYABR 2022

## Zəngilan şəhərində məktəb binasının təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Zəngilan şəhərində məktəb binasının təməlqoyma mərasimində iştirak etmişdirlər və dövlətimizin başçısı təhsil müəssisəsinin təməlini qoymuşdur.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma 960 şagird yerlik tam orta məktəbin binası ilə bağlı məlumat verərək bildirmişdir ki, Zəngilan şəhərinin mərkəzində, yaşayış kompleksinin yaxınlığında inşa olunacaq məktəbin ərazisi 1,6 hektar sahəni əhatə edəcəkdir. Üçmərtəbəli məktəb modul tipli siniflərdən, böyük amfiteatrdan, açıq sinif otaqlarından, oyun və idman meydançalarından, giriş hissədən ibarət olacaqdır.





**20**
**OKTYABR**
**2022**

## Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak etmiş və hava limanının rəmzi açılışını bildirən lenti kəsmişdirlər. Zəngilan Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edildikdən sonra dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış olmuşdurlar.




**20**
**OKTYABR**
**2022**

## Zəngilanda “Dost Aqropark” ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılış mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 20-də Zəngilan rayonunda “Dost Aqropark” ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak etmişdirlər. Tədbir zamanı prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarını cavablandırdıqdan sonra kompleksə tanış olmuşdurlar.

“Dost Aqropark” türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksidir. Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulmuşdur.

Layihənin birinci mərhələsində inzibati binalar, 5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, üzgüçülük hovuzu, xidməti heyətin yaşayışı üçün binalar tikilmişdir. Kompleksə 3500 baş cins qaramal gətirilmiş və əkinçilik məhsullarının istehsalı həyata keçirilmişdir. Hər iki prezidentin iştirakı ilə ötən il əkini aparılan buğda və arpanın biçini başa çatdırılmışdır. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan “Dost Aqropark”ın bölgəyə gətirdiyi, otlaqlarda bəslənərək yetişdirilən və kəsimi aparılmış heyvanlardan alınan ət məhsullarının paketlərinin üzərinə “Made in Qarabağ” etiketlərinin ilk nümunələrini vurmuşdurlar. Dövlət başçıları “Dost Aqropark”ın nəzdində yaradılan Zəngəzur Ağır Atletika Klubunun açılışında da iştirak etmişdirlər.

“Dost Aqropark”ın ikinci və üçüncü mərhələləri üzrə işlər də sürətlə davam etdiriləcəkdir. Layihənin bütün mərhələlərinin başa çatdırılması nəticəsində 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaqdır. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan anbar inşa ediləcəkdir. Kompleks, həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatını ödəyəcəkdir. Qarabağda istehsal olunan məhsulların “Made in Qarabağ” brendi ilə dünya bazarına çıxarılması üçün “Aqro Market” də qurulacaqdır.

Ağıllı kənd təsərrüfatı texnologiyalarının, sıfır tullantı, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiq olunacağı “Dost Aqropark” ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərəcəkdir. Layihə tam başa çatdırıldıqda kompleksdə 500 nəfər işlə təmin olunacaqdır. Burada ekosistemin yaradılması üçün ümumilikdə 100 milyon dollar dəyərində sərmayə qoyulacaqdır. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə çıxış etdikdən sonra “Dost Aqropark” ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışını bildirən lenti kəsmişdirlər.



**20 OKTYABR 2022**

## Cəbrayılda Qumlaq dəmir yolu stansiyasının təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 20-də Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq stansiyasının təməlini qoymuşdurlar.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev dövlət başçılarına Horadiz-Ağbənd dəmir yolu xətti və Qumlaq stansiyası barədə məlumat verərək bildirmişdir ki, Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini Azərbaycan Prezidenti 2021-ci il fevralın 14-də qoymuşdur. Layihənin 2023-cü ilin sonunda yekunlaşdırılması nəzərdə tutulmuşdur.

Dəmir yolu xətti tək xətlidir və ox üzrə uzunluğu 110,4 kilometrdir. Dəmir yolu xətti boyunca 9 stansiya (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd) fəaliyyət göstərəcəkdir. Layihə çərçivəsində, həmçinin 456 süni mühəndis qurğusu, 70 yoldəyişən, 110,4 kilometr uzunluğunda rabitə və işarəvermə xətti istismara veriləcəkdir. Hazırda dəmir yolu xəttinin 62-ci və 71-ci kilometrləri arasındakı ərazidə torpaq yatağı və süni mühəndis qurğularının tikintisi işləri aparılır.

Təməli qoyulan Qumlaq stansiyası ümumilikdə 1,69 hektar ərazini əhatə edir. Stansiya modern üslubda dizayn edilmiş və platforma, stansiya binası, avtomobil, avtobus və taksi dayanacaqlarından ibarətdir. İstismara verildikdən sonra stansiya gündəlik olaraq 150-200 nəfər sərnişinə xidmət göstərəcək, habelə müvafiq istiqamətlərdə yüklərin səmərəli və təhlükəsiz daşınmasına imkan yaradacaqdır.



**20**
**OKTYABR**
**2022**

## “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, “Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” Kompleksinin təməlqoyma mərasimi

Cəbrayıl rayonu ərazisində yaradılacaq “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, “Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” Kompleksinin oktyabrın 20-də təməlqoyma mərasimi keçirilmiş və əraziyə 15 baş ceyran buraxılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak etmişdirlər.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev kompleksdə görüləcək işlərlə bağlı dövlət başçılarına məlumat verərək bildirilmişdir ki, işğaldan azad edilmiş ərazilərdə 2021-ci ildə qəbul edilmiş Azərbaycan-Türkiyə/Qarabağ Tədbirlər Planına uyğun olaraq bir sıra ikitərəfli tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. Bu tədbirlər çərçivəsində, həmçinin “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, “Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” Kompleksinin yaradılması nəzərdə tutulmuşdur.

Bu məqsədlə yerli və türkiyəli mütəxəssislərlə birlikdə Cəbrayıl rayonunun Şükürbəyli-Cəbrayıl-Hadrut yolunun ətrafında 40 hektar ərazi seçilmişdir. Ərazi dəniz səviyyəsindən 603 metr yüksəklikdə, Bakı şəhərindən 340 kilometr, Zəngilan Beynəlxalq Hava Limanından 72 kilometr, Füzuli Beynəlxalq Hava Limanından isə 35 kilometr məsafədə yerləşir. Layihə ərazisində torpaq qazma və doldurma işlərinə bu il iyunun 20-də başlanılmış və layihənin 2024-cü il iyulun 1-də tam yekunlaşdırılmaqla istismara verilməsi nəzərdə tutulmuşdur.

Kompleksdə üç mərtəbədən ibarət Meşə Təlim Mərkəzində konfrans zalı, təlim otaqları, qonaq evi, ikimərtəbəli inzibati bina, laboratoriya, yeməkxana, “Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” yaradılacaqdır. Mərkəzin elektrik təchizatı üçün 180 kilovat gücündə Günəş Elektrik Stansiyasının quraşdırılması planlaşdırılır.



**24 OKTYABR 2022**

## “Qarabağ xanlığının irsi” sərgisi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili oktyabrın 24-də Mçxeta rayonundakı Muxrani sarayında (Château Mukhrani) “Qarabağ xanlığının irsi” sərgisi ilə tanış olmuşdurlar.

Sərgidə professor Eldar Nadiradzenin rəhbərlik etdiyi müəlliflər qrupunun hazırladığı “Qarabağ xanlığı. Tarixi və mədəni kimlik” kitabı təqdim edilmişdir. Sərgi zamanı nümayiş olunan fotolar “Qarabağ xanlığı. Tarixi və mədəni kimlik” kitabından seçilərək götürülmüş artefaktlar əsasında hazırlanmışdır. Onların arasında Qarabağ xanlığına aid edilən bayrağın məlum olan ilk təsvirini, Qarabağ xanları sülaləsində qorunmuş Şah İsmayılın qalxanı, qədim xalçaları, Sərdar məscidinin və onun fasadının dekorasiya plitələrini, həmçinin XIX əsr Şuşa şəhərinin görüntülərini, XIX əsrin sonu-XX əsrin əvvəllərində Sərdar xan sarayının fasadını və daxili görünüşünü, XIX əsrə aid at yəhərini, iki tar və üçsimli kamançanı əks etdirən fotolar, Mirzə Qədim İrəvaninin müəllifi olduğu Həsən Qulu xan Qacarın, Fətəli şah Qacarın portretləri xüsusi maraq doğurur.

“Qarabağ xanlığı. Tarixi və mədəni kimlik” adlı kitabda XIX əsrdə çar Rusiyasının Qarabağda həyata keçirdiyi hərbi və elmi ekspedisiyaları zamanı toplanan və hazırda Gürcüstan Milli Muzeyinin fondlarında saxlanılan, Qarabağ xanlığına aid olan 300-dən çox artefaktın rəsmi yer almışdır. Bu artefaktlar muzeyin arxivinə təhvil verildikdən sonra müəyyən səbəblərdən heç vaxt açılmamış və 100 ildən artıq bir dövrdə arxivdə kataloqlaşdırılmadan saxlanılmışdır. Kitab Azərbaycan, rus, ingilis, fransız və ərəb dillərində nəşr olunmuşdur.



**31**
**OKTYABR**
**2022**

## Soçidə ikitərəfli görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında oktyabrın 31-də Soçidə ikitərəfli görüş keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevi salamlayan Rusiya Prezidenti Vladimir Putin dövlətimizin başçısı və Ermənistanın baş nazirinin təşəbbüsü ilə keçirilən bu görüşün 2020-ci və 2021-ci illərdə nail olunmuş bütün razılaşmaların yerinə yetirilməsini təmin etmək baxımından əhəmiyyətli və vacib olduğunu bildirmişdir. Rusiyanın münaqişənin nizamlanmasındakı rolunu yüksək dəyərləndirdiyinə görə dövlətimizin başçısına təşəkkür edən Vladimir Putin hazırda Rusiyalı sülhməramlı kontingentin öz missiyasını lazımınca yerinə yetirdiyini qeyd edərək bugünkü vəziyyətdə yaranmış şərait barədə danışmaq, hələ həll edilməmiş məsələlərin həlli yollarını axtarmaq lazım gələcəyini vurğulamışdır. İqtisadi xarakterli mühüm tərkib hissəyə toxunan Vladimir Putin hələ iki il bundan qabaq haqqında danışılan məsələlərin həlli baxımından baş nazirlərin müavinlərinin rəhbərlik etdiyi üçtərəfli işçi qrupunun yaradıldığını və onların bu istiqamətdə kifayət qədər irəlilədiklərini vurğulamışdır.

Azərbaycan Prezidenti İlham Əliyev də öz növbəsində dəvətə və Qarabağ münaqişəsinin nizamlanmasında oynadığı rola görə Vladimir Putinə təşəkkür edərək iki il bundan əvvəl imzalanmış üçtərəfli Bəyannamənin çoxillik münaqişəyə son qoyduğunu və Qarabağ münaqişəsinin artıq tarixdə qaldığını, bu baxımdan da burada praktiki olaraq müzakirə edilməli məsələ qalmadığını, bugünkü görüşün isə regional məsələlərə həsr edildiyini bildirmişdir. Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesinə gəlincə dövlətimizin başçısı bu məsələnin çox ciddi addımlar tələb edən format olduğunu bildirmiş, Azərbaycanın bu istiqamətdə beynəlxalq hüququn fundamental prinsiplərinə əsaslanan 5 əsas prinsip irəli sürdüyünü və bu əsasda normallaşmaya nail olmağın mümkünlüyünü qeyd etmişdir.



31 OKTYABR 2022

## Soçidə üçtərəfli görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə oktyabrın 31-də Soçidə görüşü olmuşdur.

Görüşdə çıxış edən Rusiya Prezidenti Vladimir Putin görüşün birgə Bəyanatını razılaşdırdıqlarını, ancaq bəzi məqamların razılaşdırılmasının mümkün olmadığını, əvvəlcədən mütəxəssislər səviyyəsində işlənmiş mətndən bəzi hissələrin çıxarılmalı olduğunu, lakin ümumilikdə bu görüşün çox faydalı olduğunu və bütövlükdə vəziyyətin nizamlanması istiqamətində sonrakı addımlar üçün şərait yaratdığını qeyd etmişdir. Bu görüşün bəzi prinsipial məsələlər barədə gələcəkdə mümkün razılaşmalar üçün çox yaxşı ab-hava yaratdığını bildirmişdir. Çıxışının sonunda Vladimir Putin dövlətimizin başçısına və Ermənistan baş nazirinə görüşdə iştiraklarına görə təşəkkür etmişdir.

31 OKTYABR 2022

## Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin Bəyanatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin oktyabrın 31-də Soçidə Bəyanat imzalamışdırlar.

Bəyanatda bildirilir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin 2022-ci il oktyabrın 31-də Soçi şəhərində görüşmüş və 2020-ci il 9 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli üçtərəfli Bəyanatların həyata keçirilməsinin gedişatını müzakirə etmişdirlər. Azərbaycan-Ermənistan münasibətlərinin kompleks şəkildə normallaşdırılması, sülhün, sabitliyin, təhlükəsizliyin və Cənubi Qafqazın davamlı iqtisadi inkişafının təmin edilməsi naminə göstərilən bütün razılaşmalara dönmədən riayət edilməsinə sadiq olduqlarını təsdiq etmiş, qalan məsələlərin, o cümlədən humanitar məsələlər blokunun təxirə salınmadan həllinə yönəlmiş əlavə səylər göstərmək barədə razılaşmışdırlar.

Rusiya sülhməramlı kontingentinin yerləşdiyi zonada təhlükəsizliyin təmin edilməsinə mühüm töhfəsini qeyd edərək onun regionda vəziyyətin sabitləşməsinə yönəlmiş səylərinə ehtiyac olduğunu vurğulamış, güc tətbiq etməkdən və ya onu tətbiq etməklə hədələməkdən çəkinmək və bütün problemli məsələləri BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq suverenliyin, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması əsasında müzakirə və həll etmək barədə razılığa gəlmişdirlər.

Tərəflər regionda davamlı və uzunmüddətli sülhə nail olmaq məqsədilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülh müqaviləsi bağlanmasına fəal hazırlaşmağın vacibliyini vurğulayaraq mövcud işlənilən təkliflər əsasında məqbul həll yollarının axtarışını davam etdirmək barədə razılaşmış, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında ictimaiyyətin, ekspert birliklərinin nümayəndələri və dini liderlər arasında Rusiyanın köməyi ilə dialoqu davam etdirmək üçün, həmçinin iki ölkənin xalqları arasında etimadı möhkəmlətmək məqsədilə üçtərəfli parlamentlərarası əlaqələrin cəlb edilməsi üçün müsbət ab-hava formalaşmasının vacibliyini vurğulamışdırlar.



**07 NOYABR 2022**

## Füzuli rayonunda Müdafiə Nazirliyinin yeni istifadəyə verilmiş "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev noyabrın 7-də Füzuli rayonu ərazisində Müdafiə Nazirliyinin yeni istifadəyə verilmiş "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olmuşdur.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident İlham Əliyevə raport verdikdən sonra dövlətimizin başçısı hərbi şəhərciyin ərazisində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin önünə gül dəstəsi qoyaraq burada ağac əkmişdir. Hərbi şəhərciyin qərargah binası, əsgər yataqxanası, əsgər yeməkxanası və idman zalı ilə və eləcə də mənzillərdə yaradılmış şəraitlə tanış olan Prezident İlham Əliyev hərbçilərlə birgə foto çəkdirmiş, onları 8 Noyabr – Zəfər Günü münasibətilə təbrik etmişdir.

Hərbi şəhərcikdə görülən işlər barədə məlumat verən nazir Zakir Həsənov bildirmişdir ki, şəxsi heyətin xidməti və məişət şəraitinin təmin edilməsi məqsədilə əsaslı təmir olunmuş hərbi şəhərcik ərazisində qərargah, yeməkxana, tibb məntəqəsi, əsgər yataqxanaları, hamam-çamaşırxana, avtomobil parkı, müxtəlif təyinatlı anbarlar, eləcə də digər infrastruktur obyektləri mövcuddur. Burada döyüş hazırlığının və qoşun xidmətinin yüksək səviyyədə təşkili, döyüş əməliyyatları zamanı bölmələrin operativ idarə olunması, eləcə də digər qoşun növləri ilə qarşılıqlı əlaqənin təmin edilməsi üçün müasir kommunikasiya və informasiya vasitələri ilə təchiz olunmuş idarəetmə mərkəzi, rabitə qovşağı və digər xidməti otaqlar vardır. Şəhərcikdə hərbi qulluqçular və onların ailələri üçün yeni istifadəyə verilmiş iki və üçmərtəbəli yaşayış binaları, məktəb və uşaq bağçası mövcuddur.



07
NOYABR
2022

## Vaşinqtonda Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasında görüş

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan 7 noyabr 2022-ci il tarixində Vaşinqtonda görüşmüşdürlər. Görüşün baş tutduğu Blair House-da nazirlərin ABŞ dövlət katibi Entoni Blinken ilə birgə görüşü də keçirilmişdir.

Nazirlər mümkün sülh müqaviləsinin elementləri ilə bağlı fikir mübadiləsi aparmış, hələ də həll edilməli olan bir sıra məsələlərin olduğunu qeyd etmişdirlər. Hər iki tərəf Azərbaycan və Ermənistan liderlərinin oktyabrın 6-da Praqada və oktyabrın 31-də Soçidə keçirdikləri görüşlərdə götürdükləri öhdəlikləri bir daha təsdiq etmişdirlər.

Onlar danışıqları sürətləndirmək və yaxın həftələrdə daha bir görüş təşkil etmək barədə razılığa gəlmişdirlər.

Hər iki nazir Azərbaycan və Ermənistan arasında sülh danışıqlarına ev sahibliyi etdiyinə görə ABŞ tərəfinə təşəkkürlərini bildirmişdirlər.



08
NOYABR
2022

## İlham Əliyevin Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə iştirakı

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev noyabrın 8-də Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə iştirak etmişdirlər.

Hərbçilər qarşısında çıxış edən dövlətimizin başçısı bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik etmişdir. Çıxışı zamanı Birinci Qarabağ Müharibəsinin nəticələrinə, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətinə, Birinci Qarabağ Müharibəsindən sonrakı mərhələdə aparılan danışıqlar prosesinə, diaspor quruculuğuna, İkinci Qarabağ Müharibəsinə gedən uğurlu yolda atılan addımlara və həyata keçirilən layihələrə, ordu quruculuğuna, Azərbaycanın igid əsgərlərinin səyi nəticəsində əldə edilən Qələbəyə toxunan Prezident İlham Əliyev Şuşanın azad edilməsi ilə Zəfər qazanan bütün Azərbaycan xalqının əzmi və iradəsini yüksək qiymətləndirmiş və bildirmişdir: "Alınmaz qala sayılan Şuşanı iki il bundan əvvəl erməni işğalından azad edən Azərbaycan Silahlı Qüvvələri şanlı tarix yazdı. Bu şanlı tarix bizimlə əbədi olacaqdır. Azərbaycan xalqı, gələcək nəsillər bu şanlı Qələbə ilə haqlı olaraq fəxr edəcəkdirlər".

Prezident İlham Əliyev çıxışı zamanı qeyd etmişdir: "Dediyim bütün bu sözlərin bir mənbəyi var- həm bizim güclü iradəmiz, həm də Vətən müharibəsindəki Qələbəmiz! Bu Qələbə imkan verir ki, biz bu sözləri hamının üzünə, bizə xor baxanların gözünə deyək. Bu Qələbə, bu Zəfər bizə bu imkanı verdi, bütün xalqımıza inam verdi, ruh verdi. Biz təkcə ərazi bütövlüyümüzü yox, milli qürurumuzu bərpa etdik. Buna görə, əziz hərbçilər, sizə borcluyuq, sizin kimi on minlərlə əsgər, zabitə borcluyuq və Azərbaycan xalqı bunu yaxşı bilir. Mən də Ali Baş Komandan kimi sizinlə fəxr edirəm!"



**24**
**NOYABR**
**2022**

## İlham Əliyevin Rusiya Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsini qəbul etməsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi noyabrın 24-də qəbul etmişdir.

Görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və iki ölkə arasında sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesi, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata uyğun olaraq Ermənistan tərəfinin üzərinə düşən öhdəlikləri icra etməməsi, Soçidə keçirilmiş son görüş və onun nəticələri ilə bağlı ətraflı fikir mübadiləsi aparılmışdır.



25
NOYABR
2022

## İlham Əliyevin Bakıda keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda iştirakı

"Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfrans noyabrın 25-də Bakıda, ADA Universitetində keçirilmişdir. Bu mühüm tədbirin iştirakçıları arasında ABŞ, Belçika, Bolqarıstan, Böyük Britaniya, Fransa, İsrail, İsveçrə, İtaliya, Gürcüstan, Kanada, Misir, Pakistan, Polşa, Rumıniya, Rusiya və Türkiyənin aparıcı beyin mərkəzlərinin rəhbərləri və nümayəndələri yer almışdırlar.

Konfransda iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışı zamanı ilk öncə qonaqlara, beynəlxalq ekspertlərə konfransda iştiraklarına görə təşəkkür etmiş, belə mühüm məsələlərin müzakirəsi üçün bu önəmli tədbirə ev sahibliyi etdiyinə görə ADA Universitetinə xüsusi təşəkkürünü bildirmişdir. Daha sonra Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb dəhlizində oynadığı mühüm coğrafi mövqeyinə toxunmuş və bu günə qədər dünyadakı qlobal layihələrdə oynadığı rolun əhəmiyyətindən söz salmışdır.

Sonra Prezident İlham Əliyev konfrans iştirakçılarının suallarını cavablandırmışdır.

Konfransda Orta Dəhlizin təhlükəsizlik aspektləri, regionun iqtisadi imkanları müzakirə olunmuşdur. Xüsusilə bu baxımdan Zəngəzur dəhlizinin əhəmiyyəti, Şərq-Qərb dəhlizinin yaradacağı yeni nəqliyyat imkanları, beynəlxalq yükdaşımalarının genişləndirilməsi və şaxələndirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.



**25 NOYABR 2022**

## İlham Əliyevin Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul etməsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul etmişdir.

Görüşdə Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması, iki ölkə arasında sülh müqaviləsi ilə bağlı danışıqlar prosesi, sərhədlərin delimitasiyası üzrə Brüsseldə keçirilmiş görüşün nəticələri barədə fikir mübadiləsi aparılmışdır.



**28 NOYABR 2022**

## İlham Əliyevin ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşavirini qəbul etməsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Rikeri qəbul etmişdir.

Filip Riker ABŞ dövlət katibi Antoni Blinkenin salamlarını Prezident İlham Əliyevə çatdırmışdır. Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirmiş, onun da salamlarını Antoni Blinkenə çatdırmağı xahiş etmişdir.

Görüşdə Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsi üzrə danışıqların aparılması ilə bağlı xarici işlər nazirləri səviyyəsində Vaşinqtonda keçirilmiş görüş ətrafında fikir mübadiləsi aparılmışdır. ABŞ dövlət katibi Antoni Blinkenin Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesini daim diqqətdə saxlaması yüksək qiymətləndirilmişdir.






**09**
**DEKABR**
**2022**

## İşğaldan azad olunmuş ərazilərdə istifadə ediləcək xüsusi təyinatlı texnikalarla tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən alınmış və işğaldan azad olunmuş ərazilərdə istifadə ediləcək xüsusi təyinatlı texnikalarla tanış olmuşdur. Məlumata əsasən işğaldan azad edilmiş ərazilərdə yanğından mühafizə üçün Fövqəladə Hallar Nazirliyi tərəfindən "KamAZ" markalı 100 yanğınsöndürən və "İveco" markalı 50 xüsusi təyinatlı yanğınsöndürən avtomobil alınmışdır. "İveco" markalı avtomobillərdən 9-u artıq idxal olunmuş, 41-nin idxalı isə 2023-cü ilin birinci rübündə nəzərdə tutulmuşdur.

Müxtəlif texnogen, təbii qəzalar və yol-nəqliyyat hadisələri zamanı xüsusi xilasetmə işlərinin aparılması, işğaldan azad edilmiş ərazilərdə yüklərin və köməkçi materialların daşınması üçün FHN tərəfindən "Nissan Patrol" markalı 5, "Lada Niva Travel" markalı 11 və "QAZEL" markalı 6 avtomobil (onlardan 3-ü idxal edilmiş, digərləri isə cari ilin sonunadək idxal olunacaqdır) alınmışdır. Nazirlik tərəfindən alınan "GCS (Global Clearance Solutions) – 200" markalı, dizel mühərrikli, kənardan idarə edilən, müasir minatəmizləyən 4 robot işğaldan azad olunmuş rayonlarda piyada və tank əleyhinə minalarla çirklənmiş ərazilərin təmizlənməsi işlərində istifadə olunacaqdır. Təqdim edilən texnikalar arasında "Ural" markalı avtomobillər də vardır. Bu avtomobillər yanğın hadisəsi zamanı yüklərin daşınması və digər işlərin həyata keçirilməsi üçün nəzərdə tutulmuşdur.




**09**
**DEKABR**
**2022**

## İşğaldan azad olunmuş ərazilərdə istifadə ediləcək müasir təcili tibbi yardım avtomobilləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da işğaldan azad olunmuş ərazilərdə istifadə ediləcək İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən alınmış müasir təcili tibbi yardım avtomobilləri ilə tanış olmuşdur.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev məlumat vermişdir ki, artan tələbatın və yeni yaradılmış tibb mərkəzlərinin, məntəqələrin, o cümlədən işğaldan azad olunmuş ərazilərimizdə inşa edilən xəstəxanaların təcili tibbi yardım avtomobilləri ilə təmin edilməsi diqqət mərkəzindədir. Agentlik tərəfindən 2020-ci ildən indiyədək 84 ədəd “Fiat Doblo”, 131 ədəd “Mercedes”, 34 ədəd “Ford Transit” markasına aid olan, ümumilikdə 249 təcili tibbi yardım avtomobili satın alınmışdır. Həmçinin xüsusi 2 diferensiallı (4x4) “Mercedes Vito” avtomobilləri dağlıq relyefdə və yolsuzluq şəraitində təcili tibbi yardım briqadasının rahat və təhlükəsiz hərəkətini təmin edir. Həmin avtomobillərdən 44 günlük Vətən müharibəsi zamanı çətin və yolsuzluq şəraitlərində yaralıların təxliyəsində istifadə olunmuşdur.

Təqdim edilən “Mercedes-Benz” markalı təcili tibbi yardım avtomobillərinin 37-si sadə diferensiallı, 7-si xüsusi 2 diferensiallı, 20-si reanimobil və 1-i perinatal küvezli olmaqla, ümumilikdə 65 ədəddir. Avtomobillər xəstə tibb müəssisəsinə aparılarkən artıq yolda müalicəyə başlamağa imkan verən geniş çeşiddə dərmanlar və tibbi avadanlıqlar ilə təmin edilmişdir. Avtomobillərin komplektasiyası istənilən vəziyyətdə olan pasiyentlərin daşınmasına imkan verir.





**24**
**DEKABR**
**2022**

## Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olmuşdur. Qərbi Azərbaycan İcması 1989-cu ildən fəaliyyət göstərən "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin hüquqi varisidir. Bu il avqustun 3-də İctimai Birliyin adı dəyişdirilərək "Qərbi Azərbaycan İcması"na çevrilmiş, İcmanın yeni Nizamnaməsi təsdiq olunmuşdur. İcmada Müşahidə, Ağsaqqallar, Ziyalılar, Qadınlar və Qəyyumlar şuraları, İdarə Heyəti, Nəzarət-Təftiş Komissiyası, Gənclər Birliyi, xarici ölkələrdəki nümayəndəliklər kimi strukturlar yaradılmış və seçkilər keçirilmişdir.

Təşkilat 1989-cu ildən Qərbi Azərbaycan qaçqınlarının problemləri ilə məşğul olan və 1988-1991-ci illərdə qaçqın düşən azərbaycanlılar barədə faktların və sənədlərin toplandığı və saxlandığı yeganə ictimai qurumdur.

Məlumata əsasən, 1988-1991-ci illərdə Qərbi Azərbaycandan qovulmuş 50 mindən çox ailənin 20 minə qədərinə dəymiş ziyan hesablanmış və hazırda bu işlər davam etdirilir. Həmin illərdə Qərbi Azərbaycanda 300-ə yaxın yaşayış məntəqəsindən qovulan qaçqınların hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılmış, 130 kəndin siyahısı tamamlanmışdır. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanmasını davam etdirir.



24
DEKABR
2022

## İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşmüşdür. Görüşdə nitq söyləyən dövlətimizin başçısı ilk öncə Qərbi Azərbaycan İcmasının yerləşdiyi binanın mənəvi dəyərindən söz açmış və bildirmişdir ki, İcmanın burada yerləşməsinin əsas mənəvi səbəblərindən biri odur ki, vaxtilə bu binada yerləşmiş Qarabağın məcburi köçkünlər icması artıq öz torpaqlarına qayıdır və gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız da tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar.

Qərbi Azərbaycanın bizim tarixi torpaqlarımız olduğunu bildirən Prezident İlham Əliyev bu torpaqların əzəli sakinləri olan soydaşlarımıza qarşı müasir tarixin müxtəlif mərhələlərində aparılmış deportasiya və etnik təmizləmə siyasətinə və bu tarixi ərazilərimizdə yerləşən tarixi və mədəni irsimizə qarşı törədilən vandalizm siyasətinə toxunmuş, bu tarixi faktların dünya ictimaiyyətinə çatdırılmasının önəmini vurğulamışdır. Qərbi Azərbaycan İcmasının bundan sonra daha mütəşəkkil formada fəaliyyət göstərməsinin hamımız üçün çox önəmli olduğunu qeyd edən dövlətimizin başçısı həm yerli səviyyədə, həm də beynəlxalq müstəvidə bu işin məqsədyönlü şəkildə bir neçə istiqamət üzrə aparılmalı olduğunun vacibliyinə toxunmuşdur.

Prezident İlham Əliyev bildirmişdir ki, bu istiqamətdə sərgilər, təqdimatlar, beynəlxalq konfranslar keçirilməli, Azərbaycan diaspor təşkilatları ilə birlikdə aksiyalar təşkil etməli, xarici ölkələrin siyasi dairələri, mətbuat və qanunvericilik orqanları ilə təmaslar qurulmalı, Qərbi azərbaycanlıların hüquqlarının bərpa edilməsi və onların öz doğma torpaqlarına qayıtmaları üçün beynəlxalq hüquqşünaslar cəlb edilməli, eyni zamanda bizim tarixi həqiqətlərlə bağlı kitablarımız yenilənməlidir. Bu mövzunun beynəlxalq gündəlikdən çıxmamasını təmin etmək üçün dost saydığımız ölkələrdən alimləri, arxeoloqları, tarixçiləri dəvət edərək ildə bir dəfə, ya da iki ildən bir Bakıda Qərbi Azərbaycanla bağlı beynəlxalq konfrans keçirilməlidir.

Dövlətimizin başçısı qeyd etmişdir ki, bütün bunlara paralel olaraq beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürərək bunun əsasında öz hüququmuzu tələb etməli və beynəlxalq norma və prinsiplərə əsaslanan və sülh kontekstli Qərbi Azərbaycana Qayıdış Konsepsiyası işlənməli və bu istiqamətdə fəaliyyət göstərən bütün informasiya resursları - qəzetlər, informasiya portalları, ictimai birliklər, rəqəmsal platforma və sair bir yerə yığılmalı və məqsədyönlü şəkildə vahid konsepsiya və siyasət çərçivəsində iş aparılmalıdır.

Tədbirin sonunda çıxış edən Qərbi Azərbaycan İcmasının nümayəndələri tarixi torpaqlarımız uğrunda mübarizə aparmaq üçün yaratdığı hərtərəfli şəraitə görə dövlətimiz başçısına təşəkkürlərini bildirmişdirlər.